AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 MART 2019-cu il CÜMƏ AXŞAMI № 54 (6381) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə parlamenti sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlətimizin başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı. Azərbaycan ilə Türkiyə arasında tərəfdaşlığın bu gün yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin üçtərəfli və dördtərəfli regional formatlarda da əməkdaşlığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin birgə səylərlə həyata keçirdiyi önəmli regional təşəbbüsləri, o cümlədən artıq istismara verilmiş TANAP, "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələri qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Türkiyənin bütün məsələlərdə bir-birini dəstəklədiyini, beynəlxalq təşkilatlarda, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən şərəf duyduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın iki ölkənin olmadığını deyərək əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. O da öz növbəsində, TANAP, TAP və "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını vurğuladı. Mustafa Şentop Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin daim Azərbaycanın yanında olduğunu, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini dedi. O, bu il Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısına ev sahibliyi edəcəyini bildirərək ölkələrimizin Türk Şurası, TürkPA, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər təsisatlarda uğurla əməkdaşlıq etdiyini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Toivo Klaar Avropa İttifaqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə müsbət töhfə verməkdə çox maraqlı olduğunu ifadə etdi.

Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu deyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğuladı. Dövlətimizin başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini qeyd etdi.

Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı və ölkəmizin Şərq Tərəfdaşlığı Proqramında iştirakına dair geniş fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olub





**Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.**

AZƏRTAC xəbər verir ki, Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gəlib.

Qeyd edək ki, fevralın 5-də və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi.

**(davamı 2-ci səhifədə)**

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

# Prezident İlham Əliyev Ağsuda zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlərlə yerində tanış olub









(əvvəli 1-ci səhifədə)

Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib.

Hadisənin səhəri günü dövlətimizin başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Elə həmin gün dövlətimizin başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında Sərəncam imzalamışdı. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanmışdı.

Dövlətimizin başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən



tikilməkdə olan evlərlə tanış oldu. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evə baxdı, ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi.

Burada fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirməsinə ehtiyac var. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda 354 evin isə təmirə ehtiyacı var. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır.

Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi.

Daha sonra Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdü, onlarla söhbət etdi. Dövlətimizin başçısı Ağsu sakinlərinin ərizələrini qəbul etdi. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışıldı, dövlətimizin başçısı sakinləri narahat edən məsələləri dinlədi. Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**

## F.S.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin inkişafında xidmətlərinə və səmərəli diaspor fəaliyyətinə görə Fazil Səməd oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

## Azərbaycan qadınlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ömərova Mömünət Məhəmməd qızı

**"Tərəqqi" medalı ilə**

Bağırova Tamella Sulduz qızı
Eminova Səadət Seyfulla qızı
Əhmədova Aytən Nadir qızı
Əhmədova Dilarə Qurban qızı
Əkbərova Mehrəngiz Ağabala qızı
Ələsgərova Səadət Məhəmməd qızı
Əliyeva Xuraman Eynulla qızı
İsgəndərova Xuraman Firqən qızı
Qafarova Rəqiyə Savalan qızı
Qaybalıyeva Fəridə Kamil qızı
Quliyeva Nuranə Aslan qızı
Quliyeva Raya Səlim qızı
Məmmədova Aynur Tofiq qızı
Məmmədova Fizzə Sadıx qızı
Məmmədova Humayə Muxtar qızı
Nurməmmədova Mədinə Əlişah qızı
Tağı Zadə Təranə Qadir qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

## Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsil və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**

Namazova Sevda Nadir qızı
Rüstəmova Məlahət Oruc qızı
Salmanova Larisa Parfenevna

**"Əməkdar həkim"**

Mirzəyeva Xatirə Əbdülrəhim qızı

**"Əməkdar mədəniyyət işçisi"**

Ələkbərova Nüşabə Nazir qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

## Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Tovuz rayonunda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi işlərinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 3 160 000 (üç milyon yüz altmış min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

## "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 1, maddə 46; 2018, N 7, maddə 1492) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu"nda, "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi"ndə və "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 mart 2019-cu il.**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş S.Hacıyevin məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayət üzrə işə Konstitusiya Məhkəməsi Plenumunun aprelin 2-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

*Salome Zurabişvili:*

## Prezident kimi regionda ilk səfərimi dost Azərbaycana etdim

**Gürcüstan Prezidenti kimi regionda ilk səfərimi dost Azərbaycana etdim. Azərbaycanda gürcülərin yaşadığı bölgədə oldum.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Prezidenti Salome Zurabişvili martın 6-da parlamentdə, deputatlar qarşısında çıxışı zamanı söyləyib.

Dövlət başçısı Azərbaycanda apardığı danışıqların nəticələrini yüksək qiymətləndirib. Bildirib ki, Bakıda keçirdiyi görüşlərdə çox mühüm məsələlər müzakirə olunub.

Xəzər dənizi və Qara dəniz arasında nəqliyyat dəhlizinin inkişafına toxunan dövlət başçısı deyib: "Bakıda keçirdiyim görüşlərdə bu nəqliyyat dəhlizinin inkişafı diqqət mərkəzində oldu. Biz bu dəhlizin genişləndirilməsində maraqlıyıq".

S.Zurabişvili məruzəsində dövlətin daxili və xarici siyasətinin ən aktual məsələləri, xarici səfərləri və keçirdiyi görüşlər barədə məlumat verib.

Parlamentdəki dinləmələrdə Baş nazir Mamuka Baxtadze və hökumət üzvləri iştirak edirlər.

Çıxışdan sonra prezident deputatların suallarını cavablandıracaq.

**AZƏRTAC**

# Türkiyə Böyük Millət Məclisinin sədri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







**Azərbaycanda səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop martın 6-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Mustafa Şentopa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Türkiyə parlamentinin sədri, həmçinin Şəhidlər xiyabanında qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub. Şəhidlik kitabəsinin üstünə gül dəstələri düzən Mustafa Şentop xatirə kitabına ürək sözlərini yazıb.

AZƏRTAC

# Türkiyə Böyük Millət Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti TürkPA katibliyində olub



**Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti və Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov martın 6-da Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) katibliyinin inzibati binasında olublar.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopa katibliyin fəaliyyəti və binada yaradılan şəraitlə bağlı ətraflı məlumat verilib. Qeyd edilib ki, fəaliyyətini ildən-ilə genişləndirən, beynəlxalq əlaqələrini gücləndirən TürkPA-nın katibliyinin inzibati binasında bütün lazımi şərait yaradılıb.

Türkiyə parlamentinin sədri TürkPA-nın fəaliyyətini əks etdirən fotoşəkil ilə tanış olub, həmçinin burada yerləşən kitabxanadakı eksponatlara baxıb.

Mustafa Şentop TürkPA katibliyinin inzibati binasının həyətində dostluq və qardaşlıq rəmzi olan həmişəyaşıl ağac əkib.

Sonra keçirilən görüşdə təşkilatın fəaliyyəti barədə fikir mübadiləsi aparılıb, Azərbaycanın quruma verdiyi töhfələr yüksək qiymətləndirilib. Bildirilib ki, TürkPA-nın fəaliyyəti türk xalqlarının ümumi məqsədlərinə xidmət edir.

AZƏRTAC

# Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər dünya üçün çox gözəl nümunədir



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Mustafa Şentopu Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə təbrik edən Baş nazir Novruz Məmmədov onun parlament sədri kimi ilk səfərini Azərbaycana etməsinin yüksək qiymətləndirildiyini vurğulayıb. Baş nazir bu səfərin qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

"Bu gün Azərbaycan-Türkiyə münasibətləri çox yüksək səviyyədədir. Qardaş ölkələrimiz arasındakı münasibətlər dünya üçün çox gözəl nümunədir. Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri inkişaf etdirilərək həm ikitərəfli, həm də çoxtərəfli formatda böyük uğurlar əldə olunub. Bu əməkdaşlıq bizim ölkələrimizin, xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, regionun inkişafına da mühüm töhfələr verir", - deyə Novruz Məmmədov qeyd edib.

Baş nazir Azərbaycanın və Türkiyənin neqliyyat və energetika sahələrində birgə reallaşdırdıqları layihələrin ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələrinin inkişafına təkan verdiyini bildirib.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop iki dövlət arasında yeni vəzifəyə başlayan rəsmilərin ilk səfərlərini qardaş ölkəyə etmələrinin artıq bir ənənəyə çevrildiyini bildirərək, Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Mustafa Şentop bildirib ki, ölkələrimiz tərəfindən həyata keçirilən qlobal əhəmiyyətli layihələr, o cümlədən "STAR" neft emalı zavodunun, Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi bu gün dünyada bənzəri olmayan Azərbaycan-Türkiyə münasibətlərinin göstəricisidir.

Parlament sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycanın yanında olduğunu, qardaş dəstəyinin daim davam etdiriləcəyini vurğulayıb.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Türkiyə Böyük Millət Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olub



**Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan-Türkiyə əlaqələrinin yüksək strateji əməkdaşlıq səviyyəsində olduğunu söyləyən Milli Məclisin sədri bildirib ki, münasibətlərimizin bu cür inkişaf etməsində dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin böyük rolu var.

Milli Məclisin sədri Azərbaycan-Türkiyə münasibətlərinin möhkəm hüquqi bazasının yaradıldığını bildirərək deyib ki, ötən dövr ərzində qardaş ölkələrimiz arasında 230-a yaxın sənəd imzalanıb, 30 sənəd isə hazırlanma mərhələsindədir.

İqtisadi əlaqələrdən danışan Oqtay Əsədov diqqətə çatdırıb ki, 2017-ci ildə Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi iki milyard altı yüz milyon dollar idisə, 2018-ci ildə bu göstərici üç milyard beş yüz milyon dollar olub. Əsas hədəfimiz ticarət dövriyyəsinin həcmini on milyard dollara çatdırmaqdır. Digər sevindirici hal isə Azərbaycanın Türkiyədə əsas sərmayədarlardan biri olmasıdır. Ölkələrimiz birgə regional layihələr həyata keçirirlər. Bu layihələr gələcəkdə Avropanın enerji xəritəsini dəyişmək iqtidarındadır.

Parlamentlərimiz arasında əlaqələrin davamlı olaraq genişləndiyini söyləyən Oqtay Əsədov qeyd edib ki, nümayəndə heyətlərimiz beynəlxalq təşkilatlarda da daim bir-birlərini dəstəkləyirlər.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirib. Azərbaycanın Türkiyə üçün ən etibarlı strateji tərəfdaş olduğunu qeyd edən Mustafa Şentop deyib ki, dünyada qardaş ölkələrimiz qədər bir-birinə yaxın olan dövlətlər yoxdur.

Mustafa Şentop parlamentlərimizin dostluq qruplarının qarşılıqlı səfərlərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafı baxımından önəmini vurğulayıb.

AZƏRTAC

# Türkiyə Böyük Millət Məclisinin sədri Azərbaycana səfərə gəlib

**Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti martın 6-da Azərbaycan Respublikasına səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə parlamentinin sədrinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Mustafa Şentopu Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov qarşılayıb.

Jurnalistlərə müsahibəsində Mustafa Şentop qeyd edib ki, Türkiyə Böyük Millət Məclisinin sədri seçildikdən sonra ilk səfərini dost və qardaş Azərbaycana edir.

Səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirəcəyini qeyd edən parlament sədri deyib: "Azərbaycan və Türkiyə əlaqələri "Bir millət, iki dövlət" şüarı ilə bütün sahələrdə sürətlə genişlənir. Ölkələrimiz həm regional, həm də beynəlxalq qurumlarda sıx əməkdaşlıq edir. Bu səfərin ölkələrimiz, o cümlədən parlamentlərimiz arasındakı münasibətlərin daha da inkişafına töhfə verəcəyinə inanıram".

AZƏRTAC

# İranda Qəzvin-Rəşt dəmir yolunun açılışı olub

## *Tədbirdə Azərbaycan nümayəndə heyəti iştirak edib*

**Martın 6-da İranda Qəzvin-Rəşt dəmir yolu xəttinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami, Gilan valisi Mustafa Salari iştirak ediblər.

Qəzvin-Rəşt dəmir yolunun uzunluğu 164 kilometrdir. Dəmir yol xətti üzrə körpülər, tunellər və digər qurğular inşa olunub.

Açılış mərasimində çıxış edən İran İslam Respublikasının Prezidenti Həsən Ruhani "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsinin hər iki ölkənin dövlət başçılarının daim diqqətində olduğunu vurğulayıb və bu dəhlizin tərkib hissəsi olan Qəzvin-Rəşt dəmir yolunun önəmini qeyd edib. İran Prezidenti bildirib ki, Qəzvin-Rəşt dəmir yolu yalnız İranın və Azərbaycanın deyil, eyni zamanda, Rusiya və Şimali Avropa ölkələrinin də dəmir yolları sistemlərini birləşdirəcək.

İqtisadiyyat naziri Şahin Mustafayev qarşılıqlı hörmət, dostluq prinsiplərinə və İslam irsinə əsaslanan Azərbaycan-İran əlaqələrinin son illər sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Vurğulayıb ki, Azərbaycan və İran prezidentlərinin tapşırıqları ilə ölkələrimiz arasında əməkdaşlığın yeni hədəfləri müəyyənləşdirilib və bu istiqamətdə müvafiq işlər görülərək bir çox nailiyyətlər əldə olunub.



Qarşıya qoyulmuş hədəflərdən biri də iki ölkə arasında nəqliyyat-tranzit sahəsindəki əməkdaşlığı daha da genişləndirmək, böyük əhəmiyyətə malik "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin həyata keçirilməsini təmin etməkdir. Son illər bu istiqamətdə önəmli işlər görülüb: "Belə ki, hüquqi bazanın formalaşdırılması məqsədilə 2016-cı ildə Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Çərçivə Sazişi, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Niyyət Protokolu imzalanıb".

Nazir qeyd edib ki, Azərbaycan bu layihə üzrə öz ərazisində müvafiq infrastrukturun yaradılması işini uğurla tamamlayıb, eyni zamanda, İran ərazisində bu istiqamətdə görülən işlərə öz dəstəyini verir. Astara-Astara dəmir yolunun tikintisi, Astaraçay çayı üzərində dəmir yolu körpüsünün inşası, Astarada (İran) tikintisi davam edən yük terminalı və məhsul anbarları "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsi çərçivəsində həyata keçirilən işlərin mühüm tərkib hissələridir.

"Bu gün açılışı həyata keçirilən Qəzvin-Rəşt dəmir yolunun tikintisi də bu sahədə görülən uğurlu işlərin nəticələrindəndir. Qəzvin-Rəşt dəmir yolunun fəaliyyətə başlaması təkcə Şimal-Cənub deyil, eyni zamanda, "Cənub-Qərb" Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində atılmış çox mühüm addımdır. Bütün bunlar daşınan yüklərin həcminin artırılmasını təmin etməklə Azərbaycan Respublikasının və İran İslam Respublikasının nəqliyyat-tranzit və ticarət-iqtisadi potensialının gücləndirilməsinə böyük töhfə verəcək", - deyə Ş.Mustafayev əlavə edib.

İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami və Gilan valisi Mustafa Salari "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsində önəmli rol oynayan Qəzvin-Rəşt dəmir yolunun açılışının iqtisadi-ticarət əlaqələrinin inkişafında, yükdaşımalar sahəsində əməkdaşlığın genişləndirilməsində mühüm əhəmiyyətini vurğulayıblar.

AZƏRTAC

# Bakıda "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum" keçirilib

**Martın 6-da Bakıda "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum" keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycanda aparılan iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, keçən il Azərbaycan iqtisadiyyatında 1,4 dəfə artım qeydə alınıb. Qeyri-neft sektorunda 2 faizdən çox, kənd təsərrüfatında isə 3 faizdən artıq iqtisadi artım Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatların nəticəsi kimi qiymətləndirilir.

Baş nazirin müavini qeyd edib ki, hər il Azərbaycanın əmək bazarına 100 min işçi qüvvəsi daxil olur. Bir neçə il sonra isə 120 minədək işçi qüvvəsi daxil olacaq. Bu, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişafı nəticəsində baş verəcək.

Ə.Əhmədov Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb və "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar sırasında Dünya Bankının xüsusi yeri olduğunu deyib. Bildirib ki, indiyədək Azərbaycanda həyata keçirilən layihələrə Dünya Bankından 4 milyard dollardan çox vəsait cəlb olunub. 1990-cı ildən bu vaxtadək Dünya Bankı ilə 50-dən çox layihə icra edilib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda aparılan iqtisadi islahatların Dünya Bankı tərəfindən dəstəkləndiyini, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlərin yüksək qiymətləndirildiyini və Azərbaycanın digər ölkələr üçün örnək olduğunu qeyd edib.

M.Tembon ölkəmizdə həssas qrupların rifah halının yaxşılaşdırılması sahəsində atılan addımların təqdirəlayiq olduğunu deyib. O, Azərbaycanda sosial sahədə həyata keçirilən köklü islahatları yüksək qiymətləndirdiklərini, ölkəmizdə



əmək, məşğulluq, sosial müdafiə sahəsində aparılan islahatların mühüm əhəmiyyət kəsb etdiyini, bu islahatlar prosesində Dünya Bankı ilə birgə işlərin gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirib.

"Rəqəmsal ödənişlərin artırılması və nağdsız cəmiyyətə gedən yol" mövzusunda təqdimatla çıxış edən Mərkəzi Bankın ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanovanın sözlərinə görə, qarşıdakı 5 ildə Azərbaycanda nağdsız ödənişlərin 52 milyard manatadək artacağı nəzərdə tutulur. O qeyd edib ki, eyni zamanda, nağd iqtisadiyyatın çəkisinin 34 faiz azaldılması planlaşdırılır. Son 3 ildə Milli ödəniş sistemi üzrə aparılan dövriyyə 79 faiz artaraq 274 milyard manat olub. Həmin dövrdə kart ödənişlərində nağdsız dövriyyə isə 136 faiz artaraq 2,8 milyard manata çatıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov agentliyin fəaliyyəti, görülən işlər barədə məlumatlandırıcı təqdimat edərək bildirib ki, "KOB Dostu" şəbəkəsinin, sahibkarların dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi, KOBİA-nın çoxsaylı dəstəklərinin, biznesdən-biznesə xidmətlərin vahid məkanda təşkili ilə bağlı KOB evlərinin təşkili istiqamətində aktiv iş aparılır.

"Hazırda 12 "KOB Dostu" fəaliyyət göstərir, bu il Bakıda ilk KOB evi fəaliyyətə başlayacaq. Agentliyin fəaliyyətinin mühüm istiqamətlərindən biri də müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi və bu prosesdə KOBİA olaraq KOB maraqları baxımından çıxış etməkdir. Agentliyin təklifləri əsasında "Kiçik və orta sahibkarlığın inkişafı haqqında" Qanun layihəsi hazırlanıb, Vergi Məcəlləsinə KOB-lar üçün bir sıra yeni güzəştləri nəzərdə tutan dəyişikliklər edilib, KOB-ların müəyyənləşdirilməsi üçün yeni meyarlar təsdiqlənib, kommunal xidmətlərə qoşulma prosedurları sadələşdirilib, dövlət satınalmaları haqqında qanunvericiliyə mütərəqqi dəyişikliklər olunub", - deyə O.Məmmədov vurğulayıb.

Sonra Dünya Bankının nümayəndələri, dünya iqtisadiyyatının bəzi sahələri və bu sahələrdə Azərbaycanın tutduğu mövqe barədə təqdimatlarla çıxış edib.

Forum öz işini panel iclasla davam etdirib. İclasda Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Dünya Bankı ilə uzun illər ərzində həyata keçirilən səmərəli əməkdaşlıq məsələlərini önə çəkərək bildirib ki, bankı 25 ildən artıq müddətdə ölkəmizdə iqtisadi islahatların uğurla aparılmasına, xüsusilə infrastruktur quruculuğu, aqrar inkişaf və inzibati idarəetmənin təkmilləşməsinə mühüm töhfə verib.

E.Rüstəmov dayanıqlı iqtisadi artıma nail olmaqda makroqitisadi sabitliyin rolu, bütövlükdə makroiqtisadi siyasətdə son meyillər, xüsusilə də pul siyasəti sahəsində islahatlara toxunaraq qeyd edib ki, ötən dörddəbir əsrə yaxın bir dövrdə Azərbaycanda dövlət və iqtisadi quruculuq sahəsində görülmüş işlər, yaradılmış milli potensial onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında yeni strateji dövrün çağırışlarına da layiqli cavab veriləcək.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanda qeyri-formal məşğulluqla mübarizənin müsbət nəticələri barədə məlumat verib.

"Bu ilin yanvar-fevral aylarında əmək müqavilələrinin sayı 53 min artıb. Qeyri-formal məşğulluqla mübarizə tədbirləri və görülən çoxşaxəli işlər nəticəsində ötən il əmək müqavilələrinin sayı 90 mini ötüb. Bu ilin ilk iki ayında isə əmək müqavilələrinin sayı 53 min artıb. Bu müqavilələrin 13 mini dövlət, 40 mini isə özəl sektorun payına düşür", - deyə nazir vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov isə bildirib ki, Azərbaycanda iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən müəyyən edilib. Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı, rəqabətqabiliyyətliliyin artırılması, dərin iqtisadi şaxələndirmə, sənayeləşmənin genişləndirilməsi, sahibkarlığın inkişafı, bunun üçün institusional dəstək mexanizmlərinin təkmilləşdirilməsi və genişləndirilməsi, Azərbaycan iqtisadiyyatının ixrac potensialının artırılması, sənaye sahəsində məşğulluğun genişləndirilməsi barədə danışan nazir müavini gələcəkdə görüləcək işləri qeyd edib.

"Ölkə başçısı tərəfindən qəbul edilən strateji sənədlərin, strateji yol xəritələrinin, dövlət proqramlarının, fərman və sərəncamların icrası istiqamətində sistemli işlər həyata keçirilib, kompleks tədbirlər görülüb, gələcəyə inkişaf üçün baza yaradan nailiyyətlər əldə olunub. Sahibkarlıq sahəsində dövlət tənzimlənməsinin, dövlət nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar bir daha nəzərdən keçirilib", - deyə N.Səfərov vurğulayıb.

Azərbaycanda yaradılan sənaye məhəllələri və sənaye parkları barədə məlumat verən N.Səfərov deyib ki, Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi var. Təkcə Sumqayıt Kimya Sənaye Parkında 3 milyard dollar həcmində investisiya yatırılıb və burada yerləşən müəssisələrdə 6 minədək insan çalışır.

Forumda iqtisadiyyatın şaxələndirilməsi, əsasən də özəl sektorun bu prosesdəki rolu barədə müzakirələr aparılıb.

**AZƏRTAC**

# TÜRKSOY-un Ankaradakı mərkəzi qərargahında "Nəsimi ili"nin açılış mərasimi keçirilib

**Ümummilli lider Heydər Əliyev İmadəddin Nəsimi şəxsiyyətinə və yaradıcılığına həmişə böyük ehtiramla yanaşıb.**



AZƏRTAC xəbər verir ki, bu fikir Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Ankaradakı mənzil qərargahında keçirilən "Nəsimi ili"nin açılış mərasimində səslənib.

Nazirlər, digər ali vəzifəli şəxslər, səfirlər, diplomatik korpusun məhsul əməkdaşları, görkəmli ədəbiyyatçılar, QHT və KİV təmsilçilərinin iştirak etdikləri mərasim Azərbaycan Mədəniyyət Nazirliyi, TÜRKSOY və Azərbaycan Milli Kitabxanası tərəfindən birgə təşkil olunub.

Tədbir iştirakçıları əvvəlcə İmadəddin Nəsiminin yaradıcılığına həsr edilmiş kitab sərgisinə baxıblar.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Nəsiminin XV əsrə aid əlyazmalarının surətləri, dahi şairin 1844-cü və 1881-ci illərdə Türkiyədə ilk dəfə çap edilən kitabları, 1926-cı ildə Bakıda nəşr edilmiş ilk əsəri, Nəsiminin dünya xalqlarının dillərinə tərcümə olunaraq müxtəlif ölkələrdə çap olunmuş əsərləri, eləcə də Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə nəfis şəkildə buraxılmış iki cildliyi və digər kitablar barədə məlumat verib.

Tədbirdə çıxış edən TÜRKSOY-un baş katibi Düsen Kaseinov bildirib ki, 2019-cu ilin türkdilli ölkələr üçün "Nəsimi ili" elan olunması haqqında qərar Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə ötən ilin dekabrında təşkilata daxil olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasında qəbul edilib. Hər il təşkilatda iki ölkənin görkəmli ədəbiyyat və mədəniyyət xadiminə həsr olunmuş illərin keçirilməsi artıq ənənə halını alıb. Azərbaycanın görkəmli şəxsiyyətlərinə həsr olunan tədbirlərin həm Türkiyədə, həm də digər türkdilli ölkələrdə keçirilməsi təqdirəlayiqdir. Bu tədbirlərdə Azərbaycanın Mədəniyyət Nazirliyi və Milli Kitabxanası çox fəal iştirak edirlər. Məhz bunun nəticəsidir ki, təşkilat hər iki qurum ilə birlikdə Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, İlyas Əfəndiyev, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Molla Pənah Vaqif, Qara Qarayev və digər görkəmli şəxsiyyətlərə bağlı sanballı tədbirlər reallaşdırıb.

"Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxanası ilə birgə türk dünyasının görkəmli şəxsiyyətləri olan Yunus Əmrəyə, Məxtimqulu Fərabiyə, Abdulla Tukaya, Əhməd Zəki Validiyə, Çingiz Aytmatova, Yusuf Balasaqunluya və başqalarına həsr olunmuş belə tədbirləri Bakıda böyük uğurla keçirmişik. 2019-cu ildə Azərbaycan Milli Kitabxanası ilə Bişkekdə, Astanada, Daşkənddə, Bakıda və digər şəhərlərdə Nəsimiyə həsr olunmuş tədbirlər təşkil edəcəyik", - deyə Düsen Kaseinov qeyd edib.

Azərbaycan mədəniyyət naziri Əbülfəs Qarayev çıxışında 2019-cu ilin "Nəsimi ili" elan olunmasına görə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına və baş katib Düsen Kaseinova minnətdarlığını bildirib. Nazir vurğulayıb ki, belə tədbirlər uzun müddət biri-birindən uzaq düşmüş türkdilli xalqları daha da yaxınlaşdırır, onların mədəniyyətini, ədəbiyyatını və adət-ənənələrini daha da doğmalaşdırır. Hər dəfə Bakıda, Ankarada, İstanbulda və digər türkdilli ölkələrdə belə tədbirlərdə iştirak etməklə ədəbiyyatlarımızın, mədəniyyətlərimizin və adət ənənələrimizin daha sıx inteqrasiyasına və qarşılıqlı zənginləşməsinə kömək etmiş oluruq, buna şərait yaradırıq.

Əbülfəs Qarayev deyib: "Dahi Azərbaycan şairi Nəsimiyə gəldikdə, deyə bilərəm ki, bu böyük filosof şair daha çox Azərbaycan, türk dilində yazıb yaratdığına görə onun şeirləri, əlyazma divanları bütün Şərqdə və Orta Asiyada hamının dillər əzbəri olub. Nəsiminin yaradıcılığı və şəxsiyyəti Azərbaycanda çox yüksək qiymətləndirilir və onun doğma xalqına yenidən qayıdışı xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz 1970-ci illərdə ulu öndər Heydər Əliyev böyük Nəsiminin 600 illik yubileyinin ilk dəfə dövlət səviyyəsində qeyd olunmasına və hətta bu yubileyin UNESCO-da da layiqincə keçirilməsinə nail olub. Sovet dövründə bu hadisə böyük mədəni inqilab hesab edilə bilərdi. Azərbaycan mədəniyyətinə, mili mənəvi dəyərlərimizə, o cümlədən Nəsiminin yaradıcılığına böyük önəm verən Prezident İlham Əliyev dahi şairin əsərlərinin ölkəmizdə dəfələrlə yüksək tirajla və nəfis bədii tərtibatla çap olunmasını təmin edib. Nəsiminin 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi barədə tarixi sərəncamlar imzalayıb. Azərbaycan Prezidenti ölkəmizdə görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin, tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsinə dair hər il 10-dək belə sərəncam imzalayır və bununla da yubileylər həm ölkədə, həm də xaricdə geniş qeyd olunur".

Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu çıxışında Azərbaycanın görkəmli mütəfəkkiri, böyük şair İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tədbirlərin Ankara və İstanbul şəhərlərində təşkil edilməsindən iftixar hissi keçirdiyini bildirib və Nəsiminin əsərlərinin Türkiyədə sevilərək oxunduğunu deyib.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Haluk Dursun çıxış edərək Azərbaycan və türkdilli dövlətlər arasındakı qarşılıqlı ədəbi, mədəni əlaqələrdən, həmçinin Nəsiminin zəngin yaradıcılığı haqqında geniş söhbət açıb.

Çıxışlarda Nəsimi yaradıcılığının tanıtdırılmasının əhəmiyyətindən danışılıb. Cari ildə TÜRKSOY-un təşkil etdiyi tədbirlər çərçivəsində Nəsimi irsinə geniş yer ayrıldığı diqqətə çatdırılıb. Qeyd edilib ki, 2019-cu ilin "Nəsimi ili" elan olunması bütün türk dünyası üçün mühüm mədəniyyət hadisəsidir.

Mədəniyyət naziri Əbülfəs Qarayev Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Xalq artisti fəxri adı ilə təltif olunmuş TRT-nin xorunun dirijoru Elnarə Kərimovaya fəxri adın vəsiqəsini təqdim edib.

Sonra Nəsiminin həyat və yaradıcılığını əks etdirən film nümayiş olunub.

Tədbirin panel hissəsində Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Türk Şurası Ağsaqqallar Məclisinin üzvü, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı, professor Mustafa İsen, professor Ahmed Bican Ercilasun Nəsiminin həyat və yaradıcılığına dair fikir və mülahizələrini bölüşüblər. Çıxışlarda İmadəddin Nəsimi yaradıcılığının ayrı-ayrı istiqamətləri ətraflı təhlil olunub.

Nizami Cəfərov çıxışında Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunmasının orta əsrlərin qüdrətli söz ustadı Nəsiminin yaradıcılığına yeni baxışın ortaya qoyulması, bu görkəmli şəxsiyyətin irsinin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük məna kəsb etdiyini bildirib. O, Azərbaycan, fars və ərəb dillərində çoxsaylı orijinal əsərlərin müəllifi olan Nəsiminin, xüsusilə poeziya və ədəbi dilin inkişafında əvəzsiz xidmətlər göstərdiyini, yaradıcılığının dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov Nəsimi yaradıcılığının Azərbaycan ədəbiyyatının inkişafındakı rolundan, onun dünya ədəbiyyatı xəzinəsinə gözəl poeziya nümunələri bəxş etməsindən, əsərlərinin Azərbaycandan, bütün Şərqdən və Orta Asiyadan başlamış dünyanın hər bir guşəsində sevilərək oxunmasından, filosof şair kimi məşhurlaşmasından danışıb. K.Tahirov diqqətə çatdırıb ki, Nəsimi Azərbaycanda fəlsəfi poeziyanın əsasını qoyanlardan biridir. O, təmiz Azərbaycan dilində çox axıcı dillə gözəl şeirlər yazıb. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin təşəbbüsü Dilçilik İnstitutuna Nəsiminin adı verilib, Bakıda onun heykəli ucaldılıb, haqqında bədii film çəkilib. Azərbaycanda və bütün dünyada Nəsiminin yubileyi ilə əlaqədar keçirilən tədbirlər şairin daha geniş arealda tanınmasına və əsərlərinin geniş miqyasda nəşr olunmasına şərait yaradacaq.

Professorlar Mustafa İsen və Ahmed Bican Ercilasun İmadəddin Nəsimi yaradıcılığının orijinal üslubundan, bütün dövrlər üçün aktual olduğundan danışıblar.

Sonra nazir Əbülfəs Qarayev TÜRKSOY-un xatirə medalı ilə təltif olunub.

Tədbirin bədii hissəsində Qırğızıstanın Xalq şairi Kojogeldi Kuluyev və türkiyəli şairə İlter Yeşilay Nəsiminin şeirlərindən nümunələr səsləndiriblər. Azərbaycanın Əməkdar artisti Feyruz Səxavət Nəsiminin qəzəllərini muğam üstə ifa edib.

Sonra Qazaxıstan əsilli aşıq Savbir Guseynov Nəsiminin qəzəllərini saz ilə səsləndirib.

Bu gün Ankarada Türkiyə Prezidenti Administrasiyasının Simfonik Orkestrinin konsert salonunda mərasimin daha bir bədii hissəsi keçiriləcək.

Qeyd edək ki, bu silsilədən növbəti tədbir martın 7-də İstanbulda, Türkiyə Ədəbiyyat Vəqfinin toplantı salonunda təşkil olunacaq.

**AZƏRTAC**

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə enerji sahəsində əməkdaşlıq əlaqələri müzakirə olunub

**Energetika Nazirliyində Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə enerji sahəsində əməkdaşlıq əlaqələri, bankın dəstəyi ilə həyata keçirilən layihələrlə bağlı müzakirələr aparılıb.

Energetika naziri Pərviz Şahbazov Avropa Yenidənqurma və İnkişaf Bankı ilə uzunmüddətli və səmərəli əməkdaşlığı yüksək qiymətləndirib və bankın Cənub Qaz Dəhlizi layihəsinə maliyyə dəstəyini xüsusilə qeyd edib. Nazir energetika sektorunda aparılan islahatlar, bərpaolunan enerjidən istifadənin genişləndirilməsi, eləcə də Enerji Məsələlərini Tənzimləmə Agentliyinin fəaliyyətinə dəstəklə bağlı bank ilə əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.



Bankın prezidenti S.Çakrabarti hazırda enerji sahəsində əməkdaşlığın fəaliyyət dairəsinin geniş olduğunu vurğulayaraq, icra prosesində olan layihələrin effektivliyinin təmin edilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyini davam etdirəcəyini bildirib.

Söhbət zamanı gələcəkdə Azərbaycanda həyata keçiriləcək bərpaolunan enerji mənbələri ilə bağlı layihələrə bankın investisiya qoymaq imkanları, bu sahədə aparıcı ölkələrlə təcrübə mübadiləsi, enerji səmərəliliyinə dair məsələlər də nəzərdən keçirilib.

**AZƏRTAC**

# İran Prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib

**Martın 6-da Rəşt şəhərində İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Qəzvin-Rəşt dəmir yolunun açılışı mərasimində iştirak edən Azərbaycanın nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, İran Prezidenti salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib.

Azərbaycan nümayəndə heyətini açılış mərasimində görməkdən məmnunluğunu bildirən Prezident Həsən Ruhani vurğulayıb ki, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsi ilə rəsmi Tehran və Bakı arasındakı münasibətlər özünün yeni inkişaf mərhələsini yaşayır. Deyib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Qəzvin-Rəşt dəmir yolunun Astara şəhərinə qədər çəkilməsi İranın və Azərbaycanın milli maraqlarını əks etdirir. Qarşılıqlı faydalı əməkdaşlıq nəticəsində Rəşt-Astara dəmir yolu da tikilərək istifadəyə veriləcək.



İran Prezidenti iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini, nəqliyyat, maşınqayırma, əczaçılıq və digər sahələrdə əməkdaşlığın uğurla davam etdiyini bildirib.

Həsən Ruhani qeyd edib ki, qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirəcək və xalqların rifah halının daha da yaxşılaşmasına xidmət edəcək.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkürünü bildirib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidentinə çatdırıb. Ş.Mustafayev Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi və dostluq münasibətlərinin əməkdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığını, son illərdə dövlət başçılarının intensiv olaraq keçirilən yüksəksəviyyəli görüşlərinin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində mühüm əhəmiyyətini vurğulayıb.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilməsinə xüsusi önəm verdiyini və bu məsələni daim diqqətdə saxladığını vurğulayıb. Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycan nümayəndə heyətinin Qəzvin-Rəşt dəmir yolunun istifadəyə verilməsi mərasimində iştirakı da ölkəmizin "Şimal-Cənub" Beynəlxalq Dəhlizinə verdiyi böyük önəmin təzahürüdür. Qəzvin-Rəşt dəmir yolu beynəlxalq dəhlizin əsas tərkib hissələrindəndir və bu layihə üzərində Azərbaycanla İranın birgə fəaliyyəti ölkələrimiz arasındakı dostluğun göstəricisidir.

Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin aparıldığı görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov iştirak ediblər.

**AZƏRTAC**

*Həsən Ruhani:*

# Beynəlxalq dəhlizin həyata vəsiqə qazanmasında İranla yanaşı, Azərbaycan da böyük işlər görür

**Martın 6-da Gilan vilayətinə səfər edən İran Prezidenti Həsən Ruhani Larican şəhərində xalq qarşısında çıxış edib.**

AZƏRTAC xəbər verir ki, İran Prezidenti çıxışında "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin dəmir yolunun formalaşmasına toxunub. Prezident diqqətə çatdırıb ki, bu beynəlxalq dəhlizin həyata vəsiqə qazanmasında İran ilə yanaşı, Azərbaycan da böyük işlər görür.

Onun sözlərinə görə, İranın yaxın dostu və qonşusu olan Azərbaycanla iqtisadi əlaqələrin daha da dərinləşməsi davam etdiriləcək.

Prezident bildirib ki, bu gün açılışı olacaq Qəzvin-Rəşt dəmir yolu gələcəkdə Astara şəhərinə qədər çəkiləcək və Azərbaycanla İranın dəmir yolları birləşəcək. Bu yol yalnız iki ölkənin deyil, eyni zamanda, Asiya ilə Avropanın dəmir yollarının birləşməsini şərtləndirəcək. Qəzvi-Rəşt dəmir yolu yaxın gələcəkdə Fars körfəzi ilə Şimali Avropa dövlətləri arasında "körpü" rolunu oynayacaq. Fars körfəzinə daxil olan yüklər Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu ilə İran və Azərbaycan ərazisindən keçməklə Avropaya, eləcə də əks istiqamətə daşınacaq. Bu isə xalqların rifah halının yüksəlməsinə, dövlətlərin isə əlavə iqtisadi dividendlər qazanmasına səbəb olacaq.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər naziri İsveçrə Xarici İşlər Departamentinin dövlət katibinin müavini ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ikitərəfli siyasi məsləhətləşmələrin keçirilməsi məqsədilə ölkəmizdə səfərdə olan İsveçrə Xarici İşlər Departamentinin dövlət katibinin müavini xanım Kristina Marti Lanqla görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Kristina Marti Lanq Bakıda Azərbaycanın Xarici İşlər Nazirliyi ilə İsveçrə Konfederasiyasının Xarici İşlər Federal Departamenti arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsinin məhsuldar keçdiyini söyləyib. Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsinin aparıldığını qeyd edən xanım K.M.Lanq, Azərbaycan ilə İsveçrə arasında mövcud olan əlaqələrin müxtəlif sahələrdə daha da genişləndirilməsi istiqamətində müzakirələrin aparıldığını vurğulayıb.

Nazir Elmar Məmmədyarov qarşı tərəfə bölgədə təhlükəsizliyə əsas təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyəti barədə ətraflı məlumat verib. Ermənistan siyasi rəhbərliyinin son bəyanatlarının danışıqlar prosesinə ciddi xələl gətirdiyi vurğulanıb. Ermənistanın yeni rəhbərliyinin münaqişənin həllinin bölgəyə və konkret olaraq Ermənistan əhalisinə gətirəcəyi faydanı, rifahı düşünmək əvəzinə, əsassız bəyanatlarla sülh prosesinə zərər verdiyi İsveçrə rəsmisinin diqqətinə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq doğuran regional məsələlərə dair geniş müzakirələr aparılıb.

**AZƏRTAC**

*Paolo Qrimoldi:*

# TAP təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrin inkişafını təmin edəcək

Energetika Nazirliyində ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, energetika naziri Pərviz Şahbazov iki ölkə arasında çoxşaxəli əməkdaşlıq əlaqələrində enerji sektorunda əməkdaşlığın mühüm rolunu qeyd edib. Bildirib ki, indiyə kimi Azərbaycan neftinin əsas alıcılarından biri olan İtaliyaya Cənub Qaz Dəhlizi vasitəsilə həm də qaz ixrac ediləcək. TAP layihəsinin icra vəziyyətinin qənaətbəxş səviyyədə olduğu və bu kəmərin reallaşmasında İtaliya hökumətinin mövqeyi yüksək qiymətləndirilib.

Nazir deyib ki, TAP kəməri ilə İtaliyaya təkcə yeni mənbədən qaz daxil olmayacaq, həm də təbii qazın istehlakçılar üçün münasib qiyməti formalaşacaq, dekarbonizasiya hədəfinə töhfə veriləcək.

Paolo Qrimoldi TAP kəmərini hər iki ölkənin maraqlarına cavab verən layihə kimi qiymətləndirib. Onun sözlərinə görə, TAP təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrin inkişafını təmin edəcəkdir.

"İtaliya Azərbaycanda enerji və texnologiya sahələrinə investisiya yatırmaqda, bu istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır", - deyə o əlavə edib.

Söhbət zamanı İtaliya şirkətlərinin digər sahələrdə də fəaliyyətinə toxunulub, Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

# Cəmiyyətimizin inkişafında qadınlarımızın rolu

**Azərbaycan qadını əsrlər boyu cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında xüsusi, əhəmiyyətli rol oynamışdır. Qadınlarımızın mərdliyi, vətənpərvərliyi və müdrikliyi tariximizin hər bir dövründə özünü qabarıq şəkildə göstərmişdir. Onlar daim cəmiyyətimizin mənəvi dayağı olmuş, mürəkkəb ictimai-siyasi proseslərin yaşandığı zamanlarda dəyanət nümayiş etdirmişlər. Təsadüfi deyil ki, bu gün Azərbaycan qadını ölkənin iqtisadi, siyasi-ictimai və mədəni həyatında, dövlət quruculuğu işində və respublikamızın dinamik inkişafında öz layiqli töhfələrini verirlər.**

Ümummilli liderimiz Heydər Əliyev qadınlarımıza həmişə xüsusi qayğı və diqqət göstərmiş və onların ölkə həyatında tutduğu rolu və fəaliyyətini yüksək qiymətləndirərək demişdir: **"Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf -şan, şöhrətdir. Qadın ucalıq, ülvilik, bakirəlik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir".** Ulu öndər bütün sahələrdə olduğu kimi qadınlarımızın təhsil sahəsində də yüksək vəzifələrə çəkilməsini həmişə diqqət mərkəzində saxlayırdı. Təsadüfi deyil ki, bu gün Azərbaycanın təhsil sistemində çalışanların böyük əksəriyyəti qadınlarımızdır. O, cəmiyyətimizin bütün sahələrinin təhsilə əsaslandığını qeyd edir və deyirdi ki, iqtisadiyyatımızın bütün sahələrini inkişaf etdirmək üçün ölkədə birinci növbədə güclü kadr, təhsil potensialı olmalıdır. Çünki, o bilirdi ki, millətin gələcəyi onun təhsilinin səviyyəsi ilə sıx bağlıdır. **"Mən müəllimdən şərəfli bir peşə tanımıram"** kimi müdrik kəlamı da təhsilimizə verilən dəyərin əyani təzahürüdür.

Bu gün də ölkəmizdə, müstəqil Azərbyacanda qadınlara dövlətimiz, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən diqqət və qayğı ilbəil artırılır. Ölkə başçısının rəhbərliyi ilə milli təhsil sisteminin beynəlxalq tələblər səviyyəsində olması istiqamətində böyük islahatlar həyata keçirilir, təhsilimiz dünya təhsil sisteminə sürətlə inteqrasiya edir və bu işlərdə qadınlarımızın oynadığı rol böyük əhəmiyyət kəsb edir. Cənab Prezident qadınlarımızın çoxəsrlik tariximizdə oynadığı rolu yüksək qiymətləndirərək vurğulamışdır ki, çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişlər. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır. Bu gün qadınlarımız azərbaycançılıq məfkurəsinə sadiq, layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən şərəflə gəlirlər.

Azərbaycan qadınından söz açarkən ilk növbədə xalqımızın fəxri olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın adını xüsusi qeyd etmək lazımdır. Mehriban Əliyeva Azərbaycan qadınına məxsus ən gözəl keyfiyyətləri özündə cəmləşdirir. Titanik fəaliyyəti ilə ölkəmizin davamlı inkişafına böyük töhfələr verir. Onun milli təhsilimizin inkişafı, insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində apardığı məqsədyönlü tədbirlər, ehtiyacı olanlara qayğı, genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti ona böyük hörmət və nüfuz qazandırıb. Mehriban xanım Əliyeva yüksək dövləti vəzifəsində öz doğma Vətəni və xalqına ləyaqətlə xidmət edir.



Uğurla həyata keçirdiyi tədbirlər milli-mənəvi dəyərlərimizin qorunub gələcək nəsillərə çatdırılmasına, təhsilimizin sürətli inkişafına xidmət edir.

Son illər müstəqil Azərbaycan dövləti dinamik inkişaf edir, həyatımızın bütün sahələrində, o cümlədən təhsil sahəsində də yeniləşmə və yüksək tərəqqi var. Öz ağlı, zəkası, fədakarlığı, vətənpərvərliyi ilə fərqlənən qadınlarımızın əksəriyyəti təhsil sahəsində çalışır, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur, öz müəllim adlarını şərəflə daşıyırlar. Məhz onların fədakar əməyi, müqəddəs təhsil peşəsinə olan sevgiləri sayəsində milli təhsilimiz özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.

Bəli, qadın harada çalışırsa-çalışsın, həm də ailəsinin xanımı, ömür-gün yoldaşı, anadır. Bu gün Azərbaycan qadını öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir, cəmiyyətimizə ləyaqətli övladlar yetişdirir. Təhsil işçiləri vətənimizə, xalqımıza layiq vətənpərvər, savadlı gələcək nəsil yetişdirmək üçün bundan sonra da var gücü ilə çalışacaqlar.

Fürsətdən istifadə edib bütün qadınlarımızı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm, onlara ailə xoşbəxtliyi, öz işlərində yeni-yeni uğurlar arzulayıram.

**İlhamə HƏSƏNOVA,**
**Xətai rayonu, 245 saylı məktəbin müəllimi.**

# Mingəçevir: uğurlar çoxdur, görüləsi işlər də yetərincədir





**Nazirlər Kabinetinin ölkə başçısı cənab İlham Əliyevin sədrliyi ilə keçirilən iclasında 2018-ci ilin sosial-iqtisadi inkişafına yekun vurulmuş və 2019-cu ildə qarşıda duran vəzifələr geniş müzakirə olunmuşdur. Dövlət başçısı qeyd etmişdir ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuş, Azərbaycan sürətlə inkişaf etmiş və qarşıya qoyulan bütün vəzifələr yüksək səviyyədə icra olunmuşdur.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin geniş Şura iclasında ötən ilin uğurları müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. **Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov** geniş məruzə ilə çıxış etmişdir. Natiq vurğulamışdır ki, şəhərimiz üçün 2018-ci ilin ən əlamətdar hadisəsi fevralın 27-də ölkə Prezidenti cənab İlham Əliyevin Mingəçevirə səfəri olmuşdur. Səfər müddətində dövlət başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, daha sonra "Mingəçevir SES silsiləsi" MMC-də yeni inşa olunmuş idarəetmə mərkəzinin açılışını etmişdir. "Azərsu" ASC-nin Mingəçevir şəhər sutəmizləyici qurğusunu açdıqdan sonra, "Azərişıq" ASC-nin Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinə baxış keçirmişdir. Daha sonra cənab Prezident 2016-cı ilin sentyabr ayının 21-də təməlini qoyduğu Mingəçevir Sənaye parkının və Mingəçevir şəhərində "Asan həyat" Mərkəzinin açılışlarında iştirak etmişdir.

Cənab İlham Əliyevin şəhərimizə səfəri zamanı verdiyi göstəriş və tapşırıqlar Mingəçevir Şəhər İcra Hakimiyyəti və aidiyyəti qurumlar tərəfindən fəaliyyət proqramı kimi qəbul olunmuşdur.

2018-ci ilin təhlili göstərir ki, şəhərin sənaye müəssisələri tərəfindən il ərzində 303,9 milyon manatlıq məhsul istehsal olunmuş, əsas kapitala 60,6 milyon manat investisiya yönəldilmiş, 51,0 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Nəqliyyat və rabitə sahələrində hesabat dövründə şəhər əhalisinə müvafiq olaraq 5,2 milyon manatlıq nəqliyyat 1,2 milyon manatlıq rabitə, ticarət sahəsində əhaliyə 113,4 milyon manatlıq istehlak malları satılmış, 66,1 milyon manatlıq ödənişli xidmət göstərilmişdir.

2018-ci il ərzində 123 hündürmərtəbəli çoxmənzilli yaşayış binasının dam örtükləri əsaslı təmir olunmuş, küçələrə, məhəllədaxili yollara və səkilərə, ümumilikdə 113 min kvadratmetr sahəyə yeni asfalt örtük salınmışdır. Hesabat ilində 7 məhəlləyə 143 ədəd yeni işıq dirəyi quraşdırılmış, yol və səkilərə 18 min metr müxtəlif ölçülü beton səki daşları düzülmüş, 7,4 min kvadratmetr əraziyə dekorativ beton tamet döşənmişdir. 20 Yanvar şəhidlərinə həsr olunmuş abidə kompleksi əsaslı yenidən qurulmuş, Yeni Azərbaycan Partiyasının inzibati binasının qarşısındakı əraziyə 500 kvadratmetr sahəyə beton tava, 182 metr səki daşı düzülmüşdür. 4 yaşayış məhəlləsində abadlıq və təmir-bərpa işləri aparılmışdır. Cəmil Əliyev və digər küçələrdə asfalt örtük əsaslı təmir olunmuşdur.

Yanvar ayının 29-da ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş geniş konfrans keçirilmişdir. Dövlət başçısı giriş nitqində qeyd etmişdir ki, Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı artıqlaması ilə yerinə yetirilmişdir. Son beş ildə qarşıya qoyulan bütün vəzifələr tam həcmdə icra olunmuşdur.

Ölkənin digər regionlarında olduğu kimi şəhərimizdə də Dövlət Proqramında nəzərdə tutulan işlər ardıcıllıqla icra edilmişdir. Belə ki, 2014-2018-ci illər ərzində Dövlət Proqramına uyğun olaraq Mingəçevir şəhərində 326 hündürmərtəbəli çoxmənzilli binanın dam örtükləri əsaslı təmir olunmuşdur. Prospekt, küçə, məhəllədaxili yollara və səkilərə 997 min kvadratmetr yeni asfalt örtük salınmışdır. Yol qıraqlarına və səki kənarlarına 57 min metr səki daşı düzülmüşdür. Meydan, park, xiyabanlara və səkilərə 112 min kvadratmetr dekorativ beton tamet döşənmiş, 1633 yeni müasir işıq dirəkləri quraşdırılmışdır. 76 hündürmərtəbəli binaların fasad hissələrində üzləmə və rəngləmə işləri aparılmışdır.

Dövlət Proqramında nəzərdə tutulduğu kimi son 5 ildə 1, 4, 7, 9, 10 və 14 nömrəli məktəblər, 10 və 12 nömrəli bağçalar əsaslı təmir olunmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir və sahibkar tərəfindən bir özəl yeni uşaq bağçası tikilib istifadəyə verilmişdir. Şəhər Mərkəzi Xəstəxanası əsaslı yenidən qurulmuş və lazım olan bütün müasir tibbi avadanlıqlarla təmin edilmişdir. Xəstə və kimsəsiz uşaqlar üçün yeni bina inşa edilmiş və onlar üçün bütün lazımi şərait yaradılmışdır.

2018-ci ilə yekun vuraraq bir daha qeyd etmək lazımdır ki, Dövlət Proqramında şəhərimizə aid nəzərdə tutulan bəndlər bütövlüklə icra olunmuş və müəyyən sahələrdə işlər davam etməkdədir.

2018-ci il ərzində şəhərin sənaye müəssisələri "Azneftemaş", "Akkord Mingəçevir Maşınqayırma Zavodu" ASC-lər, "ASK İzolit" MMC sabit iş rejimində işləmiş və istehsal etdikləri məhsulların çeşidinin genişləndirilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirmişlər. Mingəçevir şəhərinin sənaye müəssisələrində ilin yekunu üzrə işləyənlərin sayı 3298 nəfər olmuşdur ki, onlardan 2712 nəfər dövlət, 586 nəfər özəl sektorda fəaliyyət göstərmişdir.

2018-ci il ərzində əhalinin sosial məsələləri daim şəhər İcra Hakimiyyətinin diqqət mərkəzində saxlanılmışdır. Belə ki, şəhərdə təqaüd alan 17820 nəfərin, ünvanlı sosial yardım alan 807 ailənin və 6940 nəfər müavinət alan vətəndaşın ödənişləri vaxtlı-vaxtında həyata keçirilmişdir.

2018-ci il ərzində kommunal xidməti müəssisələri şəhər sakinlərinə, idarə, müəssisə və təşkilatlara aidiyyəti xidmətin göstərilməsi ilə bərabər, aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərində də yaxından iştirak etmişlər.

Hesabat dövründə şəhərin Mənzil Təsərrüfatı və Abadlaşdırma İdarəsi və Mənzil Kommunal Təsərrüfatı Kombinatı tərəfindən 92 şifer və 143 yumşaq dam örtüklü binalarda 7361 kvadratmetr sahədə cari təmir işləri aparılmış, 361 binanın tüstü və havaçəkən boruları, 188 binanın yağışötürücü boruları təmizlənmişdir. Ümumilikdə yaşayış binalarının qarşısına 59 ədəd yeni oturacaq qoyulmuş, 2928 ağac əkilmiş və 876 qızılgül tingi basdırılmışdır.

Mingəçevir Bələdiyyəsi ilboyu abadlıq-quruculuq işlərində və yerli əhəmiyyətli məsələlərin həllində şəhər İcra Hakimiyyəti orqanları ilə birgə, qarşılıqlı şəkildə fəaliyyət göstərib.

Şəhər Bələdiyyəsi tərəfindən Məhəllə komitələrinin müraciətləri əsasında, dövlət büdcəsindən ayrılmış dotasiya hesabına 11 məhəllədə xeyirşər mağarlarının təmiri üçün tikinti materialları alınıb, 50 məhəlləyə 150 ədəd oturacaq hazırlanıb təhvil verilmişdir.

Bundan başqa "Azərbaycan İES" yaşayış massivində 2 ədəd avtobus dayanacağı quraşdırılmış, "N.Nərimanov" məhəllə komitəsinin ərazisində "Nümunəvi məhəllə" kompleksi yaradılmışdır.

Sukanal idarəsində il ərzində su şəbəkəsində baş vermiş 3100, kanalizasiya şəbəkəsində 5877 qəza halı aradan qaldırılmış, 55 ədəd siyirtmə təmir olunmuşdur. Abonentlərin sayğaclaşma səviyyəsi 93,6 faiz təşkil etmişdir. Su-kanalizasiya xidmətlərinə görə ödəniş əhali üzrə 88,2 faiz təşkil etmişdir.

Yaşıllaşdırma və Sanitar Təmizlik İdarəsi tərəfindən il ərzində 3973 ədəd müxtəlif növ ağac tingləri, 2500 ədəd lüqustr kolu, 1330 ədəd gül, 7820 ədəd mövsümi çiçək əkilmişdir. H.Əliyev prospektinə, Xaldan şosesinə ümumilikdə 3479 p/metr suvarma xətləri çəkilmişdir.

Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən sel sularından mühafizə kanalının 6,8 km hissəsi lil və palçıqdan təmizlənmiş, 16 ədəd yeni baxış quyusu və 146 dəst quyu qapaqları quraşdırılmışdır. Şəhərin müxtəlif küçələrində 287 metr uzunluqda çökmüş yol səki daşları bərpa edilmiş, 98 metr uzunluqda yeni səki daşları quraşdırılmışdır. "Mingəçevir kəndi" yaşayış massivində yerləşən keçmiş Şəfa, Şəfəq, Günəşli bağçılıq təsərrüfatları ərazisində daxili yollara 510 $m^3$ həcmində qum-çınqıl qarışığı daşınmış və yayılmışdır. 800 metr əsas yol, 900 metr daxili yollar mexaniki üsulla hamarlanmışdır.

Hesabat dövründə şəhər Təhsil şöbəsinin tabeliyində olan 21 ümumtəhsil məktəbi və 2 məktəbdənkənar tərbiyə mərkəzi fəaliyyət göstərmiş, 15862 nəfər şagird 702 sinif komplektində birləşdirilmişdir.

XI sinfi bitirərək attestat alan 783 nəfər məzunun 78%-i (618 nəfər) ali məktəbə qəbul üçün sənəd vermiş, onlardan 450 nəfəri qəbul imtahanlarının nəticələrinə görə tələbə adına layiq görülmüşlər. Bu, sənəd verənlərin 72%-ni təşkil edir.

2018-ci il məzunlarımız arasında 600 və yuxarı bal toplayanların sayı 66 nəfər olmuşdur.

Bu nailiyyətlərin qazanılmasında təhsil işçilərimizin əməyi də yüksək qiymətləndirilir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2018-ci ildə 1 nəfər müəllimimiz "Əməkdar müəllim" fəxri adı, 1 nəfər "Tərəqqi" medalı, təhsil nazirinin əmri ilə 2 nəfər "Qabaqcıl təhsil işçisi" döş nişanı və 1 nəfər fəxri fərmanla təltif edilmişlər.

Hesabat ilində Mingəçevir Dövlət Universitetinə 599 nəfər qəbul olunmuş, 263 nəfər universiteti bitirmiş, hazırda 1983 tələbə təhsilini davam etdirir.

Mingəçevir Turizm Kollecinə 936 nəfər qəbul olunmuş, 459 nəfər kolleci bitirmiş, 1801 tələbə oxuyur.

Mingəçevir Tibb Kollecinə 205 nəfər qəbul olunmuş, 199 nəfər kolleci bitirmiş, hazırda 611 tələbə təhsil alır.

Natiq daha sonra vurğulamışdır ki, gənc nəslin intellektual səviyyəsinin inkişafı məqsədilə gənclər arasında intellektual oyunlar, müsabiqələr, debatlar təşkil edilərək həyata keçirilmişdir. Gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsi və həvəsləndirilməsi məqsədilə "Mən könüllüyəm" devizi altında kütləvi aksiya təşkil olunmuşdur.

İl ərzində boks, cüdo, yunan-Roma, sərbəst güləş, Akademik avarçəkmə, kikboksinq, futbol, voleybol idman növləri üzrə respublika və zona birinciliklərində idmançılarımız 77 medal qazanmış, onlardan 28-si qızıl, 25-i gümüş, 24-ü bürünc olmuşdur.

Hesabat ili ərzində dövlətçiliyimizin və müstəqilliyimizin banisi, ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, dövlət və ümumxalq bayramlarımızın qeyd edilməsi ideoloji işin əsas xəttini təşkil etmişdir.

Yığıncaqda məruzə ətrafında müzakirələr olmuşdur. Geniş Şura iclasında Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynov və başqaları çıxış etmişlər.

Sonda ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Sevimli bayramımız

Bəşəriyyət tarixində ən əlamətdar günlərdən biri olan 8 Mart - Qadınlar Günü hər il respublikamızda təntənəli şəkildə qeyd olunur. Ölkəmizdə qadına daim böyük ehtiram və hörmət bəslənilmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır.

Ümummilli liderimiz dahi şəxsiyyət Heydər Əliyev 8 Mart - Qadınlar Bayramı ilə bağlı deyirdi: **"Bu bayram, doğrudan da, bizim bütün bayramlar içərisində ən gözəl bayramdır, çünki bu bayram qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar...".**

Müasir dövrdə Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan bir varlıqdır. Müasir Azərbaycan qadını həm də ölkədəki baş verən müsbət dəyişikliklər də yaxından iştirak edir. Azərbaycanın müstəqil dövlət kimi inkişaf edərək dünya dövlətləri sırasında tanınmasında qadınların xidməti danılmazdır.

1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi fəaliyyətə başlamışdır. Komitə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızda sosial-iqtisadi və mədəni həyatda qadınların rolunun artmasına böyük inam verir. Bu gün Azərbaycan qadını ziyalı, alim, müəllim, həkim, siyasətçi, millət vəkilidir. Azərbaycan xanımı ağıllı, zəhmətkeş, ailəsinə bağlı olan bir qadın, ana kimi tanınır.

Qürurla demək olar ki, qadınlarımızın səsi parlamentlərdən, konqreslərdən gəlir.

Xalqımızın milli mənəvi dəyərlərinin qorunub-saxlanılmasında və inkişafında qadınlarımız müstəsna rol oynayır.

Bu bayram günündə fəxrlə demək olar ki, Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan əbədi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişlər. Ana-qadın məfhumu xalqımızın təfəkküründə doğma yurdun, Vətən torpağının təcəssümüdür.



Azərbaycan bu gün dünyada idman ölkəsi kimi tanınır. Ölkəmizdə və Beynəlxalq idman yarışlarında qadınlarımız inamla çıxış edir, fəxri kürsünün ən yüksək pilləsində dayanırlar.

Ölkəmizdə səhiyyə sahəsində uğurlu nəticələrə imza atılır. Tibb işçiləri arasında qadınların sayı yetərincədir. Onlar müxtəlif sağlamlıq ocaqlarında insanların sağlamlığı keşiyində müsəlləh əsgər kimi dayanmışlar. Bunu çalışdığım Göz Xəstəlikləri Şöbəsində də müşahidə etmək olar. Şöbədə çalışan qadınlar şəfalı əlləri ilə gözlərə nur paylayır, insanların sağlamlığı naminə ikiqat səylə çalışırlar.

Əziz analar, əziz xanımlar!

Sizi Qadınlar Günü münasibətilə təbrik edir, gələcək fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

**Aytən EYVAZOVA,**
**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Göz Xəstəlikləri Şöbəsinin oftalmoloqu.**

# H.Sarabski adına uşaq musiqi məktəbi



Respublikamızda fəaliyyət göstərən uşaq incəsənət və musiqi məktəbləri çoxdur. Lakin örnək olası belə məktəblər isə necə deyərlər, barmaqla sayılacaq qədərdir. Qeyd etmək lazımdır ki, nümunəvi məktəblərin xüsusi yer tutmasında ona dövlət qayğısı ilə yanaşı məktəb rəhbərinin də böyük rolu vardır. Nümunəvi məktəb kimi formalaşan belə musiqi məktəblərindən biri də H.Sarabski adına 7 nömrəli uşaq musiqi məktəbidir. İndi Bakı şəhəri və Nəsimi rayonunun əksər mədəni-kütləvi tədbirlərində fəal iştirak edən H.Sarabski adına uşaq musiqi məktəbi respublikamızın keçirdiyi mədəni-kütləvi və təqvim günləri ilə əlaqədar tədbirlərdə yaxından və fəal iştirak edir.

Diplomlar, təşəkkürlərə layiq görülmüş məktəb öz yetirmələri ilə də fəxr edə bilər. Məktəbdə mütəmadi təşkil edilən nümunəvi sinif tədbirləri, uşaq dərsləri hesabat konsertləri, başqa musiqi məktəbləri ilə qarşılıqlı mədəni-kütləvi tədbirlər və konsertlər bir daha imkan verir ki, uşaqlar bir musiqiçi kimi formalaşsınlar. Bütün görülmüş tədbirlərin nəticəsidir ki, musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə bu məktəbdən uşaqların qəbulu günü-gündən artır.

H.Sarabski, adına uşaq musiqi məktəbində indi 400 uşağa 100 müəllim musiqinin sirlərini tədris edir. Onu da qeyd etməliyik ki, burada musiqi fənlərinin də sayı artırılmışdır. Məktəbdə uşaqlara fortepioano, xanəndəlik, tar, kamança, vokal, fileyta, qarmon, kanon, nağara, ud, klarnet, balaban, turba, tranbon, saksafon, skripka, saz, qaboy ixtisasları üzrə dərs tədris olunur.

Fərəhlə qeyd etmək lazımdır ki, məktəb hər il Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə Üzeyir Hacıbəyli adına Akademik Simfonik Orkestrinin müşayiəti ilə ulu öndər Heydər Əliyevə həsr olunmuş yubiley konsertində çıxış edir. Bundan başqa, hər il Q.Qarayev adına Dövlət Kamera Orkestri ilə yekun konsertində də yaxından iştirak edir.

8 Mart — Beynəlxalq Qadınlar Günü Bayramı ərəfəsində fərəhlə qeyd etməliyik ki, bütün bu nailiyyətlərin əldə edilməsində məktəbin direktoru, Əməkdar müəllim, Yeni Azərbaycan Partiyasının fəxri diplomçusu Mehriban Rüstəmovanın əməyi danılmazdır. Mehriban xanımın şəxsi fəaliyyəti və səyi nəticəsində məktəb uğurlara imza atır.

**Zabit CAVADOV,**
**"Respublika".**

*Rusiya səfiri:*

# İnanıram ki, UNEC məzunları Azərbaycan-Rusiya iqtisadi əlaqələrinə töhfələr verəcək

**Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Nikolayeviç Boçarnikov Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub.**

UNEC-in rektoru, professor Ədalət Muradovla görüşdə səfirə universitet barədə ətraflı məlumat verilib. Bildirilib ki, UNEC regionun 4 dildə ali təhsil verən və Rusiya Federasiyasında filialı olan yeganə universitetidir. UNEC-də rus dilində tədrisə böyük önəm verildiyini diqqətə çatdıran rektor Rus İqtisad Məktəbinin (RİM) fəaliyyətindən söz açıb, fakültədə 9 ixtisas üzrə iqtisadyönümlü tədris həyata keçirildiyini qeyd edib. UNEC-in Avropanın nüfuzlu universitetləri ilə magistratura və bakalavr pilləsi üzrə ikili diplom proqramlarından və əməkdaşlıq münasibətlərindən söz açan Ə.Muradov, Rusiyanın ali təhsil müəssisələri ilə də bu istiqamətdə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirib. UNEC-lə Moskva Dövlət Humanitar İqtisad Universiteti arasında inklüziv ali təhsildə bakalavr pilləsi üzrə ikili diplom razılaşmasının əldə edildiyini, Plexanov adına Rusiya İqtisad Universiteti və "Ali İqtisad Məktəbi" Milli Tədqiqat Universiteti ilə əməkdaşlıq proqramlarının həyata keçirildiyini vurğulayıb.





M.Boçarnikov Azərbaycanda rus dilinə olan marağı hər iki ölkənin dostluq münasibətlərinin bariz nümunəsi kimi qiymətləndirib. Azərbaycanda rusdilli təhsilin davam etdirilməsi məqsədi ilə hər iki ölkənin ali təhsil müəssisələri arasında əlaqələrin qurulması və genişləndirilməsinə dəstək göstərəcəyini deyib.

Görüşdə Rusiyanın ali təhsil müəssisələri ilə birgə elmi jurnalların dərc olunması, yay məktəbinin təşkili, müəllim-tələbə mübadiləsinin reallaşdırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Sonra rusiyalı diplomat Rus İqtisad Məktəbinin professor-müəllim heyəti və tələbələri ilə görüşüb.

UNEC-də RİM-nin yaradılmasını mühüm hadisə adlandıran səfir, fakültənin məzunlarının öz bilik və bacarıqları ilə Rusiya və Azərbaycanın iqtisadi əlaqələrinin inkişafına böyük töhfələr verəcəyinə əminliyini ifadə edib.

Səfir müəllim və tələbələrin Rusiya universitetləri ilə əməkdaşlıq məsələləri, birgə elmi tədqiqatların aparılması, Xəzəryanı dövlətlərlə beyin mərkəzlərinin yaradılması, o cümlədən Rusiya-Azərbaycan münasibətləri, iqtisadi əlaqələrin inkişafı və digər məsələlərlə bağlı suallarını cavablandırıb.

Hər iki dövlət arasındakı münasibətlərin qonşuluq əlaqələrindən strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəldiyinə diqqət çəkən diplomat, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini bildirib. M.Boçarnikov Rusiya ilə elm və təhsil sahəsində əməkdaşlığın qurulması istiqamətində təkliflərin hazırlanaraq səfirliyə təqdim edilməsini tövsiyə edib.

Səfir UNEC-də olmaqdan məmnunluğunu ifadə edərək, müəllim və tələbələrlə görüşlərin mütəmadi olaraq keçirilməsinin rus dilində tədrisin inkşafında faydalı olacağını bildirib. ■

# FƏDAKAR TƏDQİQATÇI

**Alim var ki, yalnız elmi dərəcə almaqla kifayətlənir, daha elm yadına düşmür, alim də var ki, bütün ömrünü elmə həsr edir. Ədəbiyyatşünas-alim Asif Heydər oğlu Rüstəmli bütün ömrünü elmə həsr etmiş alimlərdəndir.**

1982-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra Asif Rüstəmli tədqiqatçı-alim olmaq arzusu ilə fəaliyyətə başlamışdır. O, əvvəlcə "Azərbaycan məktəbi" jurnalında işləmiş, 1988-ci ildə müsabiqə yolu ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna daxil olmuş, əvvəlcə baş laborant, baş elmi işçi, şöbə müdiri vəzifəsinə qədər yüksəlmişdir. O, həmçinin indiki AMEA Folklor İnstitutunun direktoru da olmuşdur (1991-1995). Bununla bərabər, hazırda həm də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Humanitar, ictimai elmlər və sənətşünaslıq şöbəsinin müdiridir.

Asif müəllim aspiranturanı bitirdikdən sonra 1994-cü ildə "Mollanəsrəddinçi şair Bayraməli Abbaszadənin həyat və yaradıcılığı" mövzusunda dissertasiya işi müdafiə edərək filologiya elmləri namizədi, 2011-ci ildə isə "Cəfər Cabbarlı və ədəbi-mədəni mühit" mövzusunda müdafiə edərək filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

Professor Asif Rüstəmlinin elmi yaradıcılığı çox zəngindir. Belə ki, 20-yə qədər kitabın, 350-dən çox elmi və publisistik məqalənin müəllifi, 20 kitabın tərtibçisi, 2 kitabın tərcüməçisi, onlarca kitabın redaktoru, yaxud rəyçisidir.

Alimin "Çırpınırdı Qara dəniz" adlı ilk kitabı 1992-ci ildə nəşr olunmuşdur. Kitab elə ilk gündən oxucuların diqqətini cəlb etmişdir. Kitabda müəllifin Türkiyə səfəri, orada keçirilən tədbirlər, görüşlər və ziyafətlər öz əksini tapır. Akademik, Əməkdar elm xadimi mərhum Yaşar Qarayev kitaba ön söz yazaraq onu yüksək dəyərləndirmişdir.

O, Adil xan Ziyadxanın "Azərbaycan" (1993) və M.Ə.Rəsulzadənin "Bolşeviklərin Şərq siyasəti" (1994) kitablarını ərəb qrafikasından transliterasiya edib çapa hazırlamışdır.

Asif Rüstəmlinin şair Bayraməli Abbaszadənin həyat və yaradıcılığından bəhs edən "Tufandan keçən ömür" (1995), "Susmuş duyğuların səltənətində" (2002), Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühitindən bəhs edən "Zirvədən başlanan yol" (2018) və s. sanballı monoqrafiyalarının adlarını çəkmək olar.

Asif müəllimin iki kitabı - "Cəfər Cabbarlı (Həyatı, Sənatı və Mücadilesi" (2018) Türkiyədə, "Səttar xanın silahdaşı" (2018) isə İranda işıq üzü görmüşdür.

Asif Rüstəmlinin "Ədəbi redaktənin əsasları: tarixi, nəzəriyyəsi, təcrübəsi" (2018) adlı dərsliyi də öz orijinallığı ilə diqqəti cəlb edir. Dərsliyin redaktorluq sənətində təhsil alan gənclərin peşəkar mütəxəssis kimi yetişməsində əhəmiyyəti böyükdür.

Tədqiqatçı-alimin "Müdriklik mücəssəməsi" (2014) kitabı da alimlər və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Kitaba 2004-2013-cü illər ərzində müxtəlif mövzularda yazdığı və mətbuat orqanlarında dərc olunan seçmə məqalələr daxil edilərək dörd bölmədə öz əksini tapmışdır: "İstiqlal işığında", "Cabbarlı dünyası", "Ədəbi portretlər", "Tale yazıları".

Kitaba professor Vilayət Quliyev "Ədəbiyyatın layiqli sıra nəfəri" başlıqlı ön sözdə Asif Rüstəmlinin "Cabbarlı dünyası: həyatı və mühiti" tədqiqatını xüsusi vurğulayaraq qeyd edir ki, hər cür müqayisə nisbi və zərərli olsa da, deməliyəm ki, akademik Məmməd Arifdən sonra Cabbarlı irsinin öyrənilməsinə ikinci ruhu, ikinci nəfəsi Asif Rüstəmli gətirmişdir.

Alimin "Ədəbi istiqlalımız" (2004) kitabında istiqlal mücahidlərinin həyatı, fəaliyyəti, Qarabağ problemi, folklor, mətnşünaslıq və s. məsələlər əksini tapmışdır.

Professor Asif Rüstəmlinin tərtibatı ilə nəşr olunan kitablar arasında "Nəcib, mənəvi idealların tərənnümü" (2000) adlı kitabı ilk sırada dayanır. Bu kitabda 30 illik dövrü əhatə edən ümummilli lider Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət mövzusuna həsr olunmuş məruzə, çıxış və söhbətləri verilmişdir.

Asif Rüstəmli həm də Heydər Əliyevin nitqləri, məruzələri və çıxışlarından ibarət "Ədəbiyyatın yüksək borcu və amalı" kitabının redaktorudur. Kitabda Heydər Əliyevin 1969-1999-cu illərdə yazıçılar qurultaylarında, mötəbər məclislərdə ədəbiyyat, mədəniyyət, sənət haqqında etdiyi nitqləri, məruzələri, çıxışları xronoloji ardıcıllıqla toplanmışdır.

Bir qəzet məqaləsində Asif Rüstəmlinin istər müəllif kitabları, istərsə də tərtib etdiyi bütün kitablar haqqında məlumat vermək çətindir. Lakin onu da qeyd edək ki, Asif müəllim, həmçinin Prezident İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan Cəfər Cabbarlının 4 cildlik "Seçilmiş əsərləri"nin və Təhsil Nazirliyinin qərarı ilə çap olunmuş Cəfər Cabbarlının "Seçilmiş əsərləri"nin tərtibçisi, ön sözün, qeyd və şərhlərin müəllifidir.

Dördcildlik kitabın giriş hissəsini Asif Rüstəmli yeni faktlar əsasında yazmışdır.

Qeyd edək ki, professor Asif Rüstəmli cabbarlışünas kimi tanınır. Göründüyü kimi, C.Cabbarlı əsərlərinin həm tərtibçisi olmuş, həm də onun həyatı və yaradıcılığı haqqında doktorluq işi müdafiə etmişdir. Bunlarla yanaşı, o, "Susmuş duyğuların səltənətində" (2002), "Cəfər Cabbarlının həyatı və mühiti" (2009), "Mütərcim Cəfər Cabbarlı" (2011), "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" (2018) elmi kitablarının müəllifidir.

"Susmuş duyğuların səltənətində" kitabında C.Cabbarlının həyatı və yaradıcılığının indiyədək tədqiqatdan kənarda qalmış ayrı-ayrı məqamları işıqlandırılmış, bəzi gizli imzalarına aydınlıq gətirilmişdir.

"Cəfər Cabbarlı: həyatı və mühiti" (2009) monoqrafiyasında Cəfər Cabbarlının həyatı və yaradıcılığı, ədəbi-ictimai mühiti məxfi arxiv materialları və nadir sənədlər əsasında araşdırılmış, indiyə qədər bu sahədə özünü büruzə verən qaranlıq, kölgəli mətləbərə, polemik məqamlara və digər məsələlərə tam aydınlıq gətirilmişdir.

Fundamental əsərlər müəllifi professor Asif Rüstəmlinin cabbarlışünas kimi böyük nailiyyətlərindən biri də Cəfər Cabbarlının "Ədirnə fəthi" (1996) kitabını hazırlayıb çap etməsidir. Həmin kitaba C.Cabbarlının 6 pyesi ("Ulduz", "Ədirnə fəthi", "Bozbaş qazanı", "Yaylağa gedir", "Doktor gedə bilməz", "Təzə pəşə"), 4 hekayəsi ("Əhməd və Qumru", "Qara Qənbər", "Parapetdən Şamaxı yoluna qədər", "Papaq"), 11 lirik şeiri, 18 satirik şeiri, 41 məqaləsi, 12 məktubu ilk dəfə daxil edilmişdir. Ön sözün və şərhin müəllifi də Asif Rüstəmlidir.

Böyük həcmli "Ulduz" və "Ədirnə fəthi" pyesi Türkiyə xalqının mübarizə dolu tarixinin yaxın keçmişinə həsr edilmişdir.

Cəfər Cabbarlının nəşr olunmamış əsərlərini arayıb-axtarıb çap etmək Asif Rüstəmlinin çoxdankı arzusu idi. Demək olar ki, o, artıq arzusuna çatmışdır. Hələ xalq yazıçısı Anar başda olmaqla Yazıçılar Birliyinin qərarı ilə yaradılan Cəfər Cabbarlı Komissiyasının sədri seçilən Asif Rüstəmli o vaxt öz çıxışında vurğulamışdır ki, C.Cabbarlının indiyə qədər çap olunmamış əsərləri üzə çıxarılıb nəşr olunmalıdır.

Beləliklə, "Ədirnə fəthi" kitabı meydana gəldi. Bu da cabbarlısevərlər üçün böyük bir töhfə oldu. Asif müəllim "Ön söz"də kitabda olan materiallar haqqında dolğun və konkret məlumat vermişdir. Odur ki, burada onları təkrar etməyə ehtiyac yoxdur.

Onu da qeyd edək ki, Asif Rüstəmlinin kitabları haqqında müxtəlif mətbuat orqanlarında çox dəyərli rəylər dərc olunmuşdur.

Bir şeyi xatırlatmaq istəyirəm ki, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsində Cəfər Cabbarlı əsərlərinin dilinin lüğəti hazırlanmışdır. Əfsuslar olsun ki, həmin lüğət imkansızlıq ucbatından çap olunmayıb şöbədə saxlanılır. Mən də həmin lüğətin tərtibçilərindən biriyəm.

Asif Rüstəmli, həmçinin tərcüməçi və ssenarist kimi də tanınır. Belə ki, onun



"Elazığ çələngi" (2010) və türk yazıçısı Əhməd Kabaklının "Haput əfsanəsi" (2012) kitablarının tərcüməçisidir. "Elazığ çələngi" kitabında Türkiyənin Elazığ vilayətinin 45 şairinin əsərlərinin tərcüməsi verilmişdir.

Asif Rüstəmlinin ssenariləri əsasında "Günəş Şərqdən doğur", "İstiqlal fədaisi", "Nurlu gələcək naminə", "Bir kərə yüksələn bayraq", "Azərbaycan Cümhuriyyəti - 100" sənədli filmlər çəkilmişdir.

O, həmçinin 1992-1996-cı illərdə Azərbaycan Televiziyası ilə gedən "Yaddaş", "Tarix bizə nə deyir" verilişlərinin ssenari müəllifi və aparıcısı olmuşdur.

Asif Rüstəmli müxtəlif illərdə Ankarada, Bağdadda, Tehranda, Təbrizdə, Bəsrədə, Urmiyada, Varşavada, Tomskda, Elazığda, Budapeştdə, Astanada və başqa şəhərlərdə təşkil olunmuş konfrans və simpoziumlarda çıxışlar etmiş, böyük maraqla qarşılanmışdır.

Geniş və əhatəli elmi yaradıcılığı ilə, o cümlədən cabbarlışünaslıqda öz orijinallığı ilə seçilən professor Asif Rüstəmli müxtəlif illərdə bir çox mükafatlara layiq görülmüşdür: Ankarada Azərbaycan Kültür Dərnəyinin mükafatı, Qılınc və qələm beynəlxalq mükafatı, Elazığ valisinin xüsusi mükafatı, AMEA-nın fəxri fərmanı, Azərbaycan-Türkiyə Dostluq Dərnəkləri Federasionunun mükafatı, AMEA Ədəbiyyat İnstitutunun "İlin alimi" mükafatı və s.

Onu da qeyd etmək istərdik ki, professor Asif Rüstəmlinin 24 sentyabr 2006-cı il tarixli "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş arxiv materialları əsasında yazdığı "Səməd Vurğun - aspirantlıqdan akademikliyədək" adlı məqaləsi də tamamilə yenidir və oxucular üçün də çox maraqlıdır. Orada oxuculara məlum olmayan yeni faktlar var.

Professor Asif Rüstəmli həmişə axtarışda olan, öz novatorluğu ilə fərqlənən, ədəbiyyatşünaslığa məlum olmayan faktları üzə çıxaran, dəst-xəttilə seçilən fədakar bir tədqiqatçıdır.

**Nəriman SEYİDƏLİYEV,**
**filologiya elmləri doktoru.**

# Diqqət və qayğı teatr işçilərini yaradıcılığa daha da ruhlandırır

**Ağdam**



Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü, müzakirə olunan məsələlər və onların operativ həlli ilə bağlı dövlətimizin başçısının göstərişləri verməsi hər bir mədəniyyət ocağının kollektivi kimi, Ağdam Dövlət Dram Teatrının kollektivi tərəfindən də yüksək qiymətləndirilir. Bu görüş Azərbaycan teatrına, musiqisinə, memarlığına, rəssamlığına dövlətimizin, Prezidentimizin qayğısının təzahürüdür.

Ağdam Dövlət Dram Teatrının direktoru Məhəmməd Hüseynov deyir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan mədəniyyətinə, incəsənətinə çox böyük diqqət yetirib, onun inkişafında böyük xidmətləri olub. Həmin siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ötən gün keçirilən görüş, qaldırılan məsələlərə diqqətlə yanaşılması teatrımızın kollektivində yüksək əhval-ruhiyyə yaradıb. Dövlətimizin başçısı görüş zamanı səslənən bütün təklifləri təhlil olunması, bir proqram halına salınması və həll edilməsi üçün tapşırıqlar verdi. Həmin təkliflərdən biri də teatr işçilərinin əməkhaqlarının artırılması ilə bağlı idi. Bu addım teatr işçilərinin sosial rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olacaq. Mədəniyyət və incəsənət sahəsinə göstərdiyi yüksək diqqət və qayğıya görə kollektivimiz adından Prezidentimizə minnətdarlığımı bildirirəm.

**Füzuli**

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü, onların qayğıları ilə maraqlanması, fikirlərini dinləməsi cəbhə bölgəsində fəaliyyət göstərən Füzuli Dövlət Dram Teatrının kollektivi tərəfindən də rəğbətlə qarşılanıb.

Füzuli Dövlət Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev qeyd edib ki, respublikamızda digər sahələrdə olduğu kimi, mədəniyyət və incəsənət sahəsində də böyük nailiyyətlər qazanılır. Azərbaycan xalqının ictimai-siyasi həyatında, milli mədəniyyətimizin inkişafında böyük rol oynayan Azərbaycan teatrının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. 1993-cü ildən köçkünlük həyatı yaşayan Füzuli Dövlət Dram Teatrı bu gün əsaslı təmir olunan Horadiz şəhər mədəniyyət sarayında fəaliyyət göstərir və zəngin ənənələrini davam etdirir.



Dövlətimizin başçısının və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşündə səslənən təkliflərdən biri də teatr işçilərinin əməkhaqlarının artırılması ilə bağlı idi. Dövlətimizin başçısı görüş zamanı səslənən bütün təkliflərin təhlil olunması və həll edilməsi üçün tapşırıqlar verdi. Mədəniyyət və incəsənət sahəsinə olan bu yüksək diqqət və qayğı biz teatr işçilərini sevindirir, yaradıcılığa daha da ruhlandırır. Bu diqqət və qayğıya görə kollektivimiz adından Prezidentimizə minnətdarlığımı bildirirəm.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# "Şimal-Şərqi Azərbaycan ilk orta əsrlərdə" kitabının təqdimatı

Qafqaz Albaniyasının maddi-mədəniyyət tarixinin öyrənilməsi etnoqraf və arxeoloqlarımız üçün həmişə xüsusi əhəmiyyət kəsb edən mövzulardan olmuşdur. Antik və ilk orta əsrlərdə Qafqaz Albaniyasının tərkib hissəsi olan Şimal-Şərqi Azərbaycan ərazisində arxeoloji tədqiqatlar aparan və çox mühüm arxeoloji materialları üzə çıxaran tarixçi alimlərimizdən biri də **tarix elmləri doktoru, professor Abdulla Orucovdur.** Etnoqraf alim ilk dəfə olaraq bu ərazilərdəki ilk orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələrini xronoloji ardıcıllıqla ətraflı təhlil və tədqiq etmiş, yaşayış yerlərinin memarlığını, onların xronoloji dövrünü müəyyənləşdirmişdir.

O, 1936-cı ildə Qusar rayonunun Mucuq kəndində anadan olmuşdur. A.Orucov 1971-ci ildə "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq sənəti" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini almışdır. 1995-ci ildə "Şimal-Şərqi Azərbaycan ilk orta əsrlərdə" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1997-ci ildən o, ömrünün sonuna kimi BDU-nun yeni və ən yeni tarix kafedrasının professoru olmuşdur.

Professor A.Orucovun neçə-neçə



gənc alimin yetişməsində də xüsusi əməyi olmuşdur. O, 2001-ci ildə 65 yaşında dünyasını dəyişmişdir.

Alimin kitab halında çap olunmamış doktorluq dissertasiya işi olan "Şimal-Şərqi Azərbaycan ilk orta əsrlərdə" əsəri bu yaxınlarda nəfis şəkildə nəşr olunmuşdur. Vurğulamaq istəyirik ki, istedadlı alimin doktorluq dissertasiyasına ilk rəy yazanlardan biri Azərbaycanın görkəmli tarixçisi, akademik Ziya Bünyadov olmuşdur.

Bu günlərdə həmin kitabın Qusar Rayon Mərkəzi Kitabxanasında təqdimat mərasimi keçirilmişdir. Mərasimdə rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar, tarix müəllimləri, mədəniyyət işçiləri və fəal oxucular iştirak etmişlər. Tədbiri giriş sözü ilə Xaçmaz Regional Mədəniyyət İdarəsinin Qusar rayonu üzrə nümayəndəsi David İbrahimxəlilov açmışdır. Sonra kitabın tərtibçi redaktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Məmmədağa Sərdarov alimin həyat və fəaliyyəti, "Şimal-Şərqi Azərbaycan ilk orta əsrlərdə" kitabı barədə geniş məruzə ilə çıxış edərək demişdir ki, cəmi 65 illik bir ömür yolu keçən professor Abdulla Orucovun Azərbaycan tarixinin qədim dövrlərinin tədqiq olunmasında xüsusi zəhməti vardır. Onun əsərləri əsasən Azərbaycanın şimal-şərq bölgəsindəki abidələrin aşkarlanmasına, arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələrinə həsr edilmişdir.

Mərasimdə rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xatirə Nağıbəyova, Bədişqala kənd orta məktəbinin tarix müəllimi - alimin tələbəsi Feyruz Mirzəmmətov, rayonda çıxan "Qusar" qəzetinin redaktoru Vidadi Sevzixanov, alimin tələbəsi - Xaçmaz rayon Yalama kənd icra nümayəndəsi Reyhan Aslanova, rayonun ağsaqqalları Sənan Xəlilov, Fikrət Ramazanov və Mucuq kənd icra nümayəndəsi Məhəmməd Novruzov çıxış edərək alimlə bağlı xoş xatirələrini söyləmişlər.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

## DÜNYA BUGÜN
**FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR**

### ❑ ABŞ TÜRKİYƏNİ SANKSİYALARLA HƏDƏLƏYİB



ABŞ-ın Dövlət Departamenti Türkiyəni sanksiyalarla hədələyib. "Sputnik" informasiya agentliyinin Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Rusiyadan S-400 alarsa, ABŞ Türkiyəyə sanksiyalar tətbiq edəcəklərini açıqlayıb.

Verilən xəbərə görə, ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Robert Palladino Türkiyənin Rusiyadan "S-400" zenit-raket komplekslərini almasına münasibət bildirib.

R.Palladino ABŞ-ın "S-400" məsələsində mövqeyinin dəyişmədiyini və Türkiyənin Rusiyadan bu sistemləri almaq cəhdinin ABŞ-ı ciddi şəkildə narahat etdiyini dilə gətirib. O, hava müdafiə sistemi məsələsində Türkiyə ilə bərabər işləməyi və Türkiyənin dəyərləndirməsi üçün "Patriot" və digər sistemləri təklif etdiklərini bildirib.

Eyni zamanda, Robert Palladino bildirib ki, Türkiyənin "S-400" sistemləri alması Ankaranın "F-35" qırıcılarının beşinci nəsil proqramının yaradılmasında iştirakına yenidən baxılmasına səbəb olacaq. Onun sözlərinə görə, gələcəkdə Türkiyəyə silah tədarükü imkanları da sual altına düşə bilər.

Bununla yanaşı, Robert Palladino qeyd edib ki, "Sanksiyalar vasitəsilə ABŞ düşmənlərinə müqavimət haqqında" (CAATSA) qanun çərçivəsində "S-400" sistemləri alan dövlət və ya özəl qurumlar, eləcə də şəxslərin potensial sanksiyalara məruz qala biləcəyi nəzərdə tutulur.

Qeyd edək ki, "CAATSA" qanunu Rusiyanın müdafiə və kəşfiyyatı ilə əlaqəli olan qurum və təşkilatlarla iş görən üçüncü ölkə və şirkətlərə də sanksiya tətbiq olunmasını özündə əks etdirir.

### ❑ HİNDİSTAN VƏ PAKİSTAN ARASINDA MÜHARİBƏ TƏHLÜKƏSİ SƏNGİYİR



Hindistan və Pakistan arasındakı münasibətlərdəki gərginlik səngiməyə başlayıb. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bunu Pakistanın xarici işlər naziri Şah Mehmud Kureşi bildirib. Onun sözlərinə görə, artıq ölkə rəhbərliyi səfiri Hindistana geri qaytarmağa qərar verib.

Eyni zamanda, yaxın vaxtlarda Pakistan nümayəndə heyətinin Hindistana səfər edəcəyi də gözlənilir. Səfər zamanı Kartarpur dəhlizinin açılması müzakirə olunacaq və bu da hindistanlı zəvvarlara vizasız Pakistana səfər etməyə imkan yaradacaq.

Xatırladaq ki, fevralın 26-da Pakistan ordusu Hindistana məxsus iki hərbi təyyarənin vurulduğunu bəyan edib. Hindistan tərəfi isə "MiQ-21" qırıcısının vurulduğunu, həmçinin Pakistan qırıcısını da məhv edildiyini açıqlamışdı.

Bununla yanaşı, Pakistan müvəqqəti olaraq öz hava məkanını bağlayıb, bu da bir çox beynəlxalq reyslərin ləğv olunmasına və gecikməsinə səbəb olub.

Qeyd edək ki, fevralın 14-də Cəmmu və Kəşmir ştatında hərbi karvana edilən hücumu Pakistanda fəaliyyət göstərdiyi bildirilən "Caiş e-Məhəmməd" qruplaşması üzərinə götürmüşdü. Həmin hadisə iki ölkə arasında, onsuz da, mürəkkəb olan münasibətləri daha da gərginləşdirmişdi.

### ❑ SENATA ƏFQANISTANLA BAĞLI QANUN LAYİHƏSİ TƏQDİM OLUNUB



ABŞ Senatına ölkə tarixinin ən uzunmüddətli hərbi kampaniyasının - Əfqanıstanda müharibənin başa çatması barədə qanun layihəsi təqdim olunub. "Report" informasiya agentliyinin verdiyi xəbərə görə, qanun layihəsi həmçinin ABŞ qoşunlarının bu ölkədən tamamilə çıxarılmasını nəzərdə tutur.

Parlamentin yuxarı palatasının internet saytında dərc olunan sənəd Demokratlar Partiyasının nümayəndəsi Tom Yudall və Respublikaçılar Partiyasının nümayəndəsi Rend Pol tərəfindən hazırlanıb.

Qanun layihəsinin qəbul ediləcəyi təqdirdə ölkənin Müdafiə Nazirliyinə səfirliklərin və konsulluqların təhlükəsizliyini təmin edənləri istisna olmaqla, bütün ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması planını hazırlamaq üçün 45 gün vaxt veriləcək.

Verilən xəbərə görə, sözügedən layihə terrorizmə qarşı qlobal müharibədə iştirak edən hərbçilərə pul şəklində bonusların verilməsini nəzərdə tutur.

Eyni zamanda, bu qanun layihəsi 2001-ci il sentyabrın 11-də baş vermiş terror aktından sonra Konqresin prezidentə verdiyi hərbi qüvvədən istifadə icazəsini ləğv edir.

### ❑ VENESUELADA BÖYÜK ETİRAZ YÜRÜŞÜ GÖZLƏNİLİR



Venesuelada martın 9-da müxaliflər kimi hökumət tərəfdarları da aksiya keçirəcəklər. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Venesuela prezidenti Nikolas Maduro özünü müvəqqəti dövlət başçısı elan edən parlament sədri Xuan Quaydonun müxalifləri meydanlara dəvət etməsinə eyni şəkildə cavab verərək şənbə günü böyük aksiyalar təşkil edəcəklərini bildirib. Nikolas Maduro bu aksiyanı anti-imperializm günü olaraq səciyyələndirdirib.

Nikolas Maduro sabiq dövlət başçısı Uqo Çavesin ölümünün altıncı ildönümü münasibətilə paytaxt Karakasda keçirilən tədbirdə çıxış edərək ABŞ-ın keçmiş prezidenti Barak Obamanın 2015-ci il martın 9-da Venesuelanın ABŞ üçün milli təhdid olaraq nəzərdə tutulduğu fərmanı imzaladığını xatırladıb.

Venesuelalı qadınları isə martın 8-də - Beynəlxalq Qadınlar Günü münasibətilə cümə günü meydanlara dəvət edən dövlət başçısı həmin gün mühüm bəyanatlar verəcəyini dilə gətirib.

Digər tərəfdən, fevralın 22-də Venesueladan gedən Xuan Quaydo ölkəyə qayıdaraq, Karakasda keçirdiyi mitinqdə tərəfdarları ilə görüşüb.

Xuan Quaydonun paytaxt Karakasdakı bir təhsil ocağında həmkarlar ittifaqlarının nümayəndələri ilə də görüş keçirib. O, görüşdə dövlət işçilərinin həmkarlar ittifaqlarının "təsirli bir tətil" keçirəcəklərini vurğulayıb.

### ❑ İSRAİL VƏ RUSİYA SURİYA İLƏ BAĞLI BİRGƏ İŞÇİ QRUPU YARADACAQ



Rusiya və İsrailin birgə yaradacağı Suriya məsələsi ilə bağlı işçi qrupunun xarici qüvvələrin Suriyadan çıxarılması, terrorun məhv edilməsi, eləcə də sabitliyin təmin olunması üçün fəaliyyət aparacaq. "TRT" telekanalının verdiyi xəbərə görə, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə verdiyi açıqlamada qeyd edib.

Məlumata əsasən, Rusiya prezidenti Vladimir Putin və İsrailin baş naziri Benyamin Netanyahunun fevralın 27-də Moskvada keçirdiyi görüşdə Suriya məsələsi ilə bağlı işçi qrupunun yaradılması barədə qərar qəbul edilib.

Eyni zamanda, Dmitri Peskov qrupun formatı və iştirakçılarının hələ məlum olmadığını bildirib.

Qeyd edək ki, Netanyahu ötən ay Moskvaya etdiyi rəsmi səfərlə bağlı verdiyi açıqlamada Putin ilə keçirdikləri görüşdə Suriyadakı xarici qüvvələrin ölkədən çıxarılması məsələsində razılıq əldə etdiklərini vurğulayıb.

### ❑ DÜNYA TARİXİNDƏ İKİNCİ DƏFƏ HİV XƏSTƏSİ SAĞALIB



Dünyada ikinci dəfə HİV xəstəsinin sağalması müşahidə edilib. "Sputnik" informasiya agentliyinin xarici mətbuata istinadən verdiyi xəbərə görə, Böyük Britaniyada dünya tarixində ikinci dəfə HİV xəstəsi ona virusa qarşı müqavimətli doğulmuş maddə donordan sümük iliyi köçürləndən sonra sağalıb.

Bildirilir ki, eyni şəkildə 2007-ci ildə Almaniyada HİV xəstəsi ona sümük iliyi köçürüləndən sonra sağalmışdı. Britaniyanın "The Guardian" qəzetinin məlumatına görə, sözügedən xəstədə HİV infeksiyası bu günə qədər müşahidə edilməyib.

Eyni zamanda, HİV İnfeksiyası ilə Mübarizə və Profilaktikası üzrə Federal Elmi-Metodiki Mərkəzin rəhbəri, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Vadim Pokrovskinin sözlərinə görə, bu metod perspektivli deyil və geniş şəkildə yayılmayacaq.

Vadim Pokrovski qeyd edib ki, Almaniyadakı faktdan 10 il sonra məqsəd bu prosesi təkrarlamaq olub. O qeyd edib ki, bu müddət ərzində edilənlər isə uğursuzluqla nəticələnib. Akademikin sözlərinə görə, bu əməliyyatda əsas çətinlik isə donor seçimi ilə bağlıdır.

Bununla yanaşı Vadim Pokrovski qeyd edib ki, yaxın gələcəkdə genetik kodu dəyişməklə xəstələri sağaltmaq mümkün ola bilər. O əlavə edib ki, hazırda başqa bir üsul—xəstənin hüceyrələrinin dəyişdirilməsi daha effektli sayılır. ■

## “AzerGold” QSC Azərbaycanın işğal olunmuş ərazilərində əlvan metalların qeyri-qanuni hasilatının beynəlxalq müstəvidə hüquqi qiymət alması üzrə hüquqi məsləhət xidmətlərinin təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir.

Maraqlanan şəxslər “AzerGold” QSC-nin Tender Komissiyası (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, 09.00-18.00) ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 mart 2019-cu il saat 15:00-a qədər qəbul olunur.

**“AzerGold” QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin törəmə müəssisəsi olan “Azəripək” MMC-nin Şəki şəh., F.X.Xoyski küçəsində yerləşən müəssisəsində əsaslı təmir işlərinin satınalınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir. Maraqlanan təşkilatlar +994(77) 277-11-06 telefon nömrəsinə və ya farid.mahmudov@ask.gov.az elektron ünvana müraciət edə bilərlər. Ünvan: Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi 40C.

**“ASK” ASC-nin Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir: Mətbuatda elan, bildiriş və reklamlar, video, audio materiallar və videoçarxların hazırlanması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavileni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Nəzərdə tutulan işlər cari il ərzində Sifarişçinin sifarişi əsasında müxtəlif dövrlərdə və müxtəlif yerlərdə həyata keçiriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu AZ1025, Bakı şəhəri, Nobel prospekti 25E, (Bakı Ağ Şəhər ofis binası) ünvanından ala bilərlər.

**Əlaqələndirici şəxs: Elçin Dadaşov, tel: (+994 12) 525 01 18, Faks: (+994 12) 525 01 14**

**İştirak haqqı: 200 (iki yüz) manat**

*Təşkilat: Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi*

*H/h: AZ25CTRE00000000000002598301*

*VÖEN: 1700428481*

*Bank: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi*

*VÖEN: 1401555071*

*KOD: 210005*

*Büdcə təsnifatı kodu: 142319*

*Büdcə səviyyəsinin kodu: 3*

*M/h: AZ41NABZ01360100000000003944*

*SWİFT: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının son üç ildə yerinə yetirdiyi anoloji müqavilələr barədə məlumat;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iddiaçıların müvafiq mənşə və uyğunluq sertifikatları.*

Tender təklifi Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 aprel 2019-cu il saat 18:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə (bank təminatının təqdim edilmədiyi halda təklif açılmadan geri qaytarılacaqdır) möhürlənmiş ikiqat zərfdə 25 aprel 2019-cu il saat 18:00 tarixinə qədər AZ 1025, Bakı şəhəri, Nobel prospekti 25E, (Bakı Ağ Şəhər ofis binası) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 aprel 2019-cu il saat 11:00 tarixində AZ 1025, Bakı şəhəri, Nobel prospekti 25E ünvanda yerləşən Bakı Ağ Şəhər ofis binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Azercell-in dəstəklədiyi “İdeyadan Biznesə” layihəsi çərçivəsində



Startap hərəkatının genişləndirilməsinə və vətəndaşların innovativ ideyalarının reallaşdırılmasına dəstək məqsədi ilə ötən ildən həyata keçirilən “İ2B-İdeyadan Biznesə” layihəsi uğurla davam etdirilir. “Azercell Telekom” MMC-nin tərəfdaş qismində çıxış etdiyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının “İnkişaf Proqramı” və “Microsoft” şirkətinin birgə təşkilatçılığı ilə reallaşdırlan layihə çərçivəsində bu ilin ilk startap turu Mingəçevir şəhərində təşkil olunub. Mingəçevir şəhəri ilə yanaşı, Gəncə şəhəri, Şəki, Tərtər, Şəmkir, Ucar, Balakən, Yevlax və Ağdaş rayonlarından olan 100-dən çox gənc startap turuna qatılıb.

Tədbirdə “Azercell Telekom” MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov çıxış edib. O, Azərbaycanda startap sahəsində dövlət və özəl təşkilatlar tərəfindən bir sıra layihələrin uğurla həyata keçirildiyini qeyd edib. Bu kimi tədbirlərin yeni İT layihələrinin üzə çıxarılmasına, innovativ ideyaların uğurlu biznesə çevrilməsinə yardım etməklə yanaşı, həm də gənc startapçıların mentorluq dəstəyi, ölkədaxili və xarici investorlarla görüş kimi imkanlarla təmin olunmasına şərait yaratdığını diqqətə çatdırıb.

Mingəçevirdə baş tutan tədbirin informativ hissəsindən sonra startapları əsas müsabiqəyə hazırlamaq üçün kiçik biznes-treninq keçirilib və iştirakçılardan ibarət 8 komanda formalaşdırılıb. İkinci hissədə komandalar ideyalarını münsiflər heyəti qarşısında təqdim ediblər. Hər çıxışdan sonra interaktiv sual-cavab və layihənin müzakirəsi baş tutub. Bu mərhələnin sonunda münsiflər region üzrə 1-ci, 2-ci və 3-cü yerlərin qaliblərini müəyyənləşdiriblər. Beləliklə, 1-ci yerə “Self”, 2-ci yerə “Way friend”, 3-cü yerə isə “SCash” layihəsi layiq görülüb.

Mingəçevirdən sonra növbəti startap turu Sabirabad rayonunda təşkil olunub. Sabirabad rayonu, Heydər Əliyev Mərkəzində keçirilən tədbirə 150-dən çox gənc qatılıb. Müzakirələrdən sonra münsiflər region üzrə 1-ci yerə “OSHE01”, 2-ci yerə “AVP”, 3-cü yerə isə “2Sİ” layihəsini layiq görüblər. Qeyd edək ki, qalib olan layihələr Bakıda keçiriləcək Milli Finalda iştirak hüququ qazanıb. Milli Finalda qalib gələcək ilk üç yerin sahibləri mükafatlandırılacaq, həmçinin onlara ideyalarını biznesə çevirmək üçün maliyyə dəstəyi göstəriləcək.

Qeyd edək ki, ötən il 8 regionda, 16 ali təhsil və 3 ümumtəhsil müəssisəsində “İdeyadan Biznesə” layihəsi çərçivəsində startap turları keçirilib. Bu il isə startap turları Sumqayıt, Gəncə, Göyçay, Naxçıvan, Bakı, Lənkəran, Zaqatala, Tovuz, Şamaxı və Şəkini əhatə edəcək.

“Azercell Telecom” MMC və PAŞA Bankın dəstəyi ilə fəaliyyət göstərən, Azərbaycanın ilk biznes inkubatoru Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi 10 il ərzində bir çox layihələrin həyata keçirilməsinə öz töhfəsini vermiş, 20-yə yaxın startapın müstəqil şirkətə çevrilməsinə kömək olmuşdur. ■

## AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ ÖZƏLLƏŞDİRMƏ PROSESİNƏ MƏSLƏHƏTÇİ XİDMƏTLƏRİNİN CƏLB OLUNMASI ÜZRƏ

## AÇIQ TENDER ELAN EDİR

1. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, özəlləşdirməyə açıq olan bir sıra dövlət müəssisələrinin (bundan sonra “müəssisələr”) özəlləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması üçün məsləhətçi xidmətlərinin cəlb edilməsi üzrə açıq tender elan edir.

2. Cəlb olunacaq məsləhətçi tərəfindən aşağıdakı işlər görülməlidir:

2.1. Müəssisələrin maliyyə-iqtisadi və SWOT təhlilinin aparılması, satılan hissələrin beynəlxalq norma və standartlara uyğun qiymətləndirilməsi və biznesin potensial inkişaf perspektivləri əsasında onların canlandırılması üçün minimal investisiya ehtiyaclarının müəyyən edilməsi;

2.2. Potensial investorlara təqdim olunmaq üçün hər bir müəssisə üzrə məlumat memorandumunun (ölkə haqqında, qanunvericilik və s. barədə məlumatlar daxil edilməklə) hazırlanması;

2.3. Müəssisələrin özəlləşdirilməsinə yerli və xarici investorların cəlb edilməsi üçün potensial investorların geniş siyahısının (“long list”) tərtib edilməsi;

2.4. Müəssisələrin satışı üzrə keçiriləcək investisiya müsabiqələrində iddiaçılar qarşısında qoyulacaq şərtlərlə bağlı (dövlət büdcəsinə ödəniş, investisiyaların minimal həcmi, təyinat profilinin saxlanılması və ya dəyişdirilməsi, yaradılmalı iş yerlərinin sayı və s.) tövsiyələrin verilməsi;

2.5. İnvestisiya müsabiqəsinin iştirakçılarının təkliflərinin qiymətləndirilməsi və qalibin seçilməsində müsabiqə komissiyalarının işinə köməklik göstərilməsi (zəruri hallarda);

2.6. İnvestisiya müsabiqəsinin qalibi ilə imzalanacaq alqı-satqı müqaviləsinin layihəsinin hazırlanması və onun müzakirəsi zamanı müsabiqə qalibi ilə danışıqlarda satıcının mövqeyinin dəstəklənməsi (zəruri hallarda);

2.8. Satınalan təşkilatın tələbi ilə və qarşılıqlı razılaşma əsasında digər işlərin görülməsi.

3. Açıq tenderdə müəssisələrin beynəlxalq norma və standartlar əsasında qiymətləndirilməsi və özəlləşdirmə sahəsində uğurlu təcrübəyə malik olan yerli və xarici məsləhətçi şirkətlər, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsiumlar) iştirak edə bilərlər.

4. Tender qalibinin xidmətlərinin haqqının ödənilməsi “müvəffəqiyyətə görə ödəniş” prinisipi əsasında (“success fee”) həyata keçiriləcək və müəssisələrin özəlləşdirilməsi başa çatdıqdan və onların alıcıları ilə alqı-satqı müqavilələri imzalandıqdan sonra müvafiq alıcılar tərəfindən təmin olunacaqdır.

5. Tenderdə iştirak haqqı 500 (beş yüz) manat müəyyən edilmişdir. Tenderin Əsas Şərtlər Toplusunu almaq üçün iddiaçılar müvafiq məbləği satınalan təşkilatın aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 810, tel.: +99412 4902408, əlavə 191; faks: +99412 4903359) ünvanına müraciət etməlidirlər:

**Emitent:**

*Dövlət Xəzinədarlıq Agentliyi*

*Bank kodu: 210005*

*VÖEN: 1401555071*

*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*

*S.W.İ.F.T. bik: CTREAZ22*

**Alan:**

*Əmlak Məsələləri Dövlət Komitəsi*

*VÖEN: 2000015631*

*H/H- AZ84CTRE00000000000002647970*

*Büdcə səviyyəsinin kodu - 7*

*Büdcə təsnifatının kodu - 142340.*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

6. Əsas Şərtlər Toplusunu almaq üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Əsas Şərtlər Toplusunu almaq üçün ərizə;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi.

7. Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə qalmalıdır);
- tender təklifinin dəyərinin 2 (iki) faizindən az olmayan məbləğdə bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə qalmalıdır);
- vergilərə və digər məcburi ödənişlərə dair müvafiq dövlət qurumlarından alınmış arayışlar;
- iddiaçının maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- digər sənədlər.

Tenderdə iştirak etmək üçün təqdim edilməli digər sənədlərin siyahısı, onların tərtib olunmasına dair tələblər və təqdim olunma qaydası Əsas Şərtlər Toplusunda göstərilir.

8. Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 9 (doqquz) ay müddətinə icra olunmalıdır.

9. İddiaçılar öz təkliflərini Əsas Şərtlər Toplularında göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (maliyyə təklifi və təklifin bank təminatı istisna olmaqla) 15 aprel 2019-cu il, saat 17:00-dək, tender təklifini və təklifin bank təminatını isə möhürlənmiş qapalı zərflərdə 25 aprel 2019-cu il, saat 17:00-dək Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 ünvanına (otaq № 810) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

10. Zərflərin açılması ilə bağlı Tender Komissiyasının iclası 26 aprel 2019-cu il, saat 15:00-da Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 ünvanında, Əmlak Məsələləri Dövlət Komitəsinin inzibati binasında (otaq 310) keçiriləcəkdir.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığına uyğun açılacaq və təkliflər elan ediləcəkdir.

11. Tenderlə bağlı daha ətraflı məlumat almaq üçün iddiaçılar yuxarıda göstərilən ünvana müraciət edə bilərlər. Əlaqə telefonları: (+99412) 490-24-08 (əlavə 207 və 191), faks: (+99412) 490-33-59.

**Tender Komissiyası.**

## “Azəralüminium” MMC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** 15 ton butil maddəsi və 20,000 ədəd butil kağızının satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə yazılı sürətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Gəncə şəhəri, Yevlax şosesi 53 ünvanından ala bilərlər.

**Əlaqə telefonu: (050) 503 03 75**

**Əlaqələndirici şəxs: Teymur Quliyev**

**İştirak haqqı: Lot-1. 200 (iki yüz) manat**

*Rekvizitlər:*

*VÖEN: 1305481501*

*Bank: “Azərbaycan Beynəlxalq Bankı “Gəncə” filialı*

*Kod: 509352*

*VÖEN: 9900001881*

*M/h: AZ03NABZ01350100000000002944*

*S.W.İ.F.T. BİK:İBAZAZ2X*

*İBAN:AZ36İBAZ40040019446110810255 AZN*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*- malların təhvil verilmə qrafiki;*

*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanların tərəfindən təsdiq olunmuş maliyyə hesabatının süreti;*

*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat. Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və süreti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və malların təchiz olunma qrafiki istisna olmaqla) 19 aprel 2019-cu il saat 17:00-a qədər, malların təchiz olunma qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 aprel 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 01 may 2019-cu il saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin törəmə müəssisəsi olan “Azərtütün ASK” MMC-nin Şəki rayonu, Çələbixan qəsəbəsində TİEM-nin 30 ədəd müasir odlaqarutma kameraları quraşdırmaqla yenidən qurulması işinin satın alınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir. Maraqlanan təşkilatlar +994(77) 277-11-06 telefon nömrəsinə və ya farid.mahmudov@ask.gov.az elektron ünvana müraciət edə bilərlər. Ünvan: Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi 40C.

**“ASK” ASC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin törəmə müəssisəsi olan “Azəripək” MMC-nin Şəki şəh., F.X.Xoyski küçəsində yerləşən müəssisəsində 2 ədəd yükqaldırma qabiliyyətli 2000 kq olan yük liftlərinin əsaslı təmiri işinin satın alınması üçün təkliflər sorğusu üsulu ilə satınalma keçirir. Maraqlanan təşkilatlar +994(77) 277-11-06 telefon nömrəsinə və ya farid.mahmudov@ask.gov.az elektron ünvana müraciət edə bilərlər. Ünvan: Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi 40C.

**“ASK” ASC-nin Tender Komissiyası.**

## LƏNKƏRAN REGİONAL MƏDƏNİYYƏT İDARƏSİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 3 lot üzrə keçirilir:**

**lot 1** - Dəftərxana və təsərrüfat xərclərinin alınması

**lot 2** - Bərk inventarların alınması

**lot 3** - Avadanlıqların alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran, Zərifə Əliyeva 99 (AZ4200) (Əlaqələndirici şəxs: Tender Komissiyası, telefon: (025) 255-48-01) ünvanından ala bilərlər.

**İştirak haqqı**

**lot 1 - 50 manat**

**lot 2 - 50 manat**

**lot 3 - 50 manat**

*Hesab: AZ78CTRE00000000000002172002*

*VÖEN: 2602298011*

*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*

*Kodu: 210005*

*VÖEN: 1401555071*

*M/H: AZ41NABZ01360100000000003944*

*S.W.İ.F.T: BİK CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

